# Bayramınız mübarək!

AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 55 (1400), 28 dekabr 2018 - 7 yanvar 2019-cu il*

*Qəzet 2001-ci ildən çıxır.*



## Prezident İlham Əliyev Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak edib

Dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlətimizin başçısına raport verdi.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov görülən işlər və burada yaradılan şəraitlə bağlı dövlətimizin başçısına ətraflı məlumat verdi.

Qeyd edək ki, müasirliyi ilə diqqəti cəlb edən mərkəzdə tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 14 min kvadratmetr olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin universal zalında yaradılan şəraitlə tanış oldu. Məlumat verildi ki, 1950 tamaşaçı yerlik universal zalda idmanın müxtəlif növləri üzrə yarışlar təşkil etmək mümkündür. Burada, əsasən, Fövqəladə Hallar Nazirliyinin idman-sağlamlıq klubu fəaliyyət göstərəcək. İdman-sağlamlıq klubu tərəfindən əsas diqqət nazirliyin hərbi qulluqçularının və dövlət qulluqçularının fiziki hazırlığının yüksəldilməsinin həyata keçirilməsinə yönəldilib. Bundan başqa, klub nazirliyin qurumlarında idmanın müxtəlif növləri üzrə yarışların keçirilməsində iştirak edərək yığma komandaların, ayrı-ayrı idmançıların, məşqçilərin respublika və beynəlxalq əhəmiyyətli yarışlara qatılmasını təmin edir. Klub, həmçinin xilasetmə qurumlarının fəaliyyət istiqamətlərinə uyğun olaraq idman yarışları da təşkil edir. Son illər idman-sağlamlıq klubunun üzvləri müxtəlif yerli və beynəlxalq yarışlarda mühüm uğurlar qazanırlar. İdman-sağlamlıq klubunun təşkilatçılığı ilə hər il “Mübarizlər” yarışı keçirilir. Bu il keçirilən yarışda klubun təmsilçiləri 8-i əcnəbi iştirakçıdan ibarət olmaqla, 45 komanda arasında birinci yeri tutub. Bundan başqa, klubun üzvləri 20-dək çempionatda, o cümlədən dünya və Avropa birinciliklərində, həmçinin digər turnirlərdə uğurla çıxış ediblər. Klubun kişilərdən ibarət voleybol komandası Azərbaycan çempionatında müvəffəqiyyətlə çıxış edərək ikinci yeri tutub. Klubda inkişaf etdirilən əsas idman növləri arasında nazirliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq səmti müəyyənetmə, dağadırmanma, beşnövçülük və çoxnövçülüyə də xüsusi diqqət yetirilir.

İdman-Sağlamlıq Mərkəzinin trenajor, cüdo, boks, güləş, karate və taekvondo zallarında da idmançılar üçün hərtərəfli şərait yaradılıb. Məşqçilərin otaqları da məhsuldar fəaliyyət üçün hər cür imkana malikdir. Zallarda məşqlərin keçirilməsi və yarışların təşkili üçün mükəmməl şərait var. İdmançılara həkim nəzarəti də yüksək səviyyədə təşkil olunub.

Qeyd edildi ki, İdman-Sağlamlıq Mərkəzinə daxil olan restoran və mətbəxdə də xidmətin müasir səviyyədə təşkili üçün hər cür şərait yaradılıb. Buradakı üzgüçülük hovuzu da ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25 metr, eni isə 12 metrdir. Ölkəmizdə yeniyetmə və gənclərin idmanın üzgüçülük növünə də marağı ildən-ilə artır. Bu zalda üzgüçülük yarışlarını 120 nəfər izləyə biləcək.

Ölkəmizdə həyata keçirilən quruculuq işləri çərçivəsində gənclərlə iş və idman sahəsinə də xüsusi diqqət yetirilir. Kütləvi bədən tərbiyəsi və idman artıq cəmiyyət həyatının ayrılmaz tərkib hissəsinə çevrilib. Azərbaycanın müxtəlif bölgələrində bir-birinin ardınca çoxsaylı idman obyektləri, o cümlədən Olimpiya kompleksləri inşa edilib, bir çox müvafiq infrastruktur yenidən qurulub.

İndi Azərbaycanda güclü idman potensialı formalaşıb. Böyüməkdə olan nəsil adlı-sanlı idmançılardan nümunə götürür və onların şərəfli yolunu davam etdirməyə çalışır. Onu da qeyd edək ki, idman-sağlamlıq klubunun üzvləri yalnız nazirliyin əməkdaşlarından ibarətdir. Hazırda klubun 300-dək üzvü var. Klubun üzvləri bu idman qurğusunda cüdo, güləş, karate, üzgüçülük, gimnastika, taekvondo və digər idman növləri üzrə ustalıqlarını artırırlar. Gələcəkdə idman növlərinin sayının artırılması nəzərdə tutulur. İdman-Sağlamlıq Mərkəzinin həyətində geniş abadlıq-quruculuq işləri görülüb, yaşıllıqlar salınıb.

## Gənclər və İdman Nazirliyi 2018-ci ilə yekun vurub

Dekabrın 26-da Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilin idman yekunlarına dair tədbir keçirilib.

Tədbirdə gənclər və idman naziri Azad Rəhimov, Prezident Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri Yusuf Məmmədəliyev, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, idman federasiyalarının rəhbərləri və idmançılar iştirak ediblər.

Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsindən sonra 2018-ci il ərzində idmançılarımızın qazandıqları nailiyyətlərə və ölkəmizdə keçirilən mötəbər idman yarışlarına dair videoçarx nümayiş olunub.

Gənclər və idman naziri Azad Rəhimov tədbirdə çıxış edərək 2018-ci ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu bildirib. Nazir vurğulayıb ki, il ərzində federasiyalarla birlikdə ölkəmizdə 225 yerli, 58 beynəlxalq turnir keçirilib. Bundan başqa, 236 beynəlxalq yarışda yığma komandalarımızın iştirakı təmin olunub. Hesabat ilində Azərbaycan idmançıları dünya, Avropa çempionat və birinciliklərində, kubok yarışlarında və beynəlxalq turnirlərdə 753 medal qazanıblar. Medallardan 263-ü qızıl, 230-u gümüş, 260-ı bürüncdür. Argentinanın paytaxtı Buenos-Ayresdə keçirilmiş Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında idmançılarımız 3 qızıl, 1 gümüş və 3 bürünc medal əldə ediblər.




MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında Azərbaycanda idmana göstərilən dövlət qayğısından danışıb və idmançılarımızın cari ildəki çıxışlarını yüksək qiymətləndirib. Çingiz Hüseynzadə deyib ki, son illər Azərbaycan mötəbər beynəlxalq tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməklə idman dövləti olduğunu bütün dünyaya bir daha göstərib.

Sonra müxtəlif nominasiyalar üzrə 2018-ci ilin ən yaxşıları mükafatlandırılıb.

## Atletika Federasiyasının illik hesabat yığıncağı keçirildi




Dekabrın 27-də Milli Olimpiya Komitəsinin inzibati binasında Azərbaycan Atletika Federasiyasının illik hesabat yığıncağı keçirilib.

Tədbirdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti, Azərbaycan Atletika Federasiyasının (AAF) prezidenti Çingiz Hüseynzadə, AAF-ın vitse-prezidenti Firat Hüseynov, baş katib Məhərrəm Sultanzadə, federasiyanın digər nümayəndələri və idmançılar iştirak ediblər. Tədbiri giriş sözü ilə açan Çingiz Hüseynzadə yola salmağa hazırlaşdığımız 2018-ci ilin ölkəmizin idman həyatı üçün uğurlu illərdən biri olduğunu diqqətə çatdırıb. AAF-nın prezidenti bu ilin rəhbərlik etdiyi federasiya üçün də uğurlu keçdiyini deyib: “Atletlərimiz il ərzində 25 beynəlxalq yarışda iştirak ediblər. Bu yarışlarda ümumilikdə 21 medal qazanılıb. Atletimiz Aleksis Kopello Avropa çempionatında gümüş medala sahib çıxıb. Digər idmançımız Rüstəm Məmmədov isə yeniyetmələrin Avropa çempionatında bürünc medal qazanıb. Bu il həmçinin 2 atletimiz Buenos-Ayresdə keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında iştirak edib. Başa çatmaqda olan ilə nəzər yetirsək əldə olunan nəticələri qənaətbəxş hesab etmək olar”.

Sonra federasiyanın baş katibi Məhərrəm Sultanzadə il ərzində keçirilən yarışlarla bağlı hesabat verib. O, həmçinin bir sıra beynəlxalq seminarlar və tədbirlərin həyata keçirildini diqqətə çatdırıb.

Tədbirin sonunda il ərzində fərqlənən idmançılar və məşqçilərə mükafatlar təqdim olunub.

## İdman salnaməsinə həkk olunan tarix

## Çingiz Hüseynzadə:

### *“Azərbaycan idmançıları 2018-ci ili uğurla başa vurdular”*

Səh. 2-7

# İdman salnaməsinə həkk olunan tarix

***Azərbaycan beynəlxalq idman və Olimpiya Hərəkatında xüsusi yer tutub və inkişaf etmiş güclü idman dövlətlərindən birinə çevrilib. Bu uğurların əldə olunması ölkəmizdə idmana və Olimpiya Hərəkatına dövlət səviyyəsində göstərilən diqqət və qayğının nəticəsində mümkün olub. Müstəqil Azərbaycanın atletləri Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında bir qayda olaraq uğurla çıxış edir, respublikamızın idman və Olimpiya Hərəkatı tarixinin şanlı səhifələrini yazırlar. İdmançılarımız xalqımızın, dövlətimizin onlara olan etimadını doğruldaraq qələbələrin sayını ildən-ilə artırırlar. "Olimpiya dünyası" qəzeti də ölkəmizdə idmanın və Olimpiya Hərəkatının təbliği sahəsində fəaliyyət göstərir. Atletlərimizin Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında, müxtəlif beynəlxalq turnirlərdəki çıxışlarını daim öz səhifələrində işıqlandırır.***

***İlin sonunda "Olimpiya dünyası" qəzeti olaraq, ölkəmizin idman və Olimpiya Hərəkatının tarixinə qısa nəzər salmaqla, bu tarixi salnamənin şanlı səhifələrini çoxsaylı oxucularımızla birgə yenidən vərəqləmək istədik.***



## Çingiz Hüseynzadə:
## *"Azərbaycan idmançıları 2018-ci ili uğurla başa vurdular"*

***Azərbaycanın idman ictimaiyyəti 2018-ci ili uğurla yola salır. Sevindirici haldır ki, bu il də idmançılarımız üçün yaddaqalan olub.***

Qəzetimiz idman sahəsində qazanılan uğurlar və ilin yekunları ilə bağlı Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadənin fikirlərini öyrənib. MOK-un vitse-prezidenti ölkəmizdə idman və Olimpiya Hərəkatının inkişafı, respublikamızın ev sahibliyi etdiyi mötəbər yarışlar, idmançılarımızın əldə etdikləri uğurlardan danışıb.

- Azərbaycan dünyanın inkişaf etmiş idman dövlətlərindən birinə çevrilib. Bunu ölkəmizdə yaradılan güclü maddi-texniki baza, idmançılar üçün yaradılan şərait, beynəlxalq miqyaslı yarışlarda qazanılan nəticələr də təsdiqləyir. Azərbaycan həm də mötəbər yarışlara ev sahibliyi baxımından böyük təşkilatçılıq təcrübəsinə malikdir. I Avropa Oyunlarının, IV İslam Həmrəyliyi Oyunlarının, Formula-1 və digər beynəlxalq yarışların yüksək səviyyədə təşkili ölkəmizin idman qüdrətinin təcəssümüdür.

Azərbaycan Bakı-2015 Avropa Oyunlarında Olimpiya Hərəkatına sadiq bir dövlət kimi özünü bütün dünyada təsdiqlədi. Biz bütün dünyaya sübut etdik ki, belə bir tədbiri yüksək səviyyədə təşkil edə bilərik. Avropa Oyunları möhtəşəm bir tədbir idi. Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın rəhbərliyi altında həyata keçirilən yüksək səviyyəli təşkilatçılıq işləri Oyunların uğurla keçməsi ilə nəticələndi. Biz nümayiş etdirdik ki, dünyanın sivil ölkələrindən biriyik və ən böyük tədbirləri yüksək səviyyədə təşkil etməyə qadirik. Bəzi ölkələrin rəsmi nümayəndələri deyirlər ki, Azərbaycan zəngin ölkədir və buna görə təşkilatçılıq işlərini yüksək səviyyədə həyata keçirir. Amma biz həm də idman nəticələri ilə uğur qazandıq. Atletlərimizin uğurları ölkəmizin hər bir sahədə inkişaf etdiyini sübuta yetirdi. Bu, bir daha onu göstərir ki, biz nəinki zəngin, həm də qüdrətli ölkəyik. Azərbaycan I Avropa Oyunları ilə tarix yazdı və bu barədə hələ çox danışılacaq.

Ölkəmiz şərqlə qərb arasında körpü rolunu oynayan IV İslam Həmrəyliyi Oyunlarına da yüksək səviyyədə ev sahibliyi etdi. Fərəhli haldır ki, həm də komandamız yarışları qalib kimi başa vurdu. I Avropa Oyunları, eləcə də, IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyindən sonra yaradılan infrastruktur və təşkilatçılıq təcrübəsi bizə istənilən kompleks yarışları keçirmək imkanı verir.

Azərbaycan dünyanın mötəbər idman tədbiri olan Olimpiya Oyunlarında da uğurla çıxış edir, idmançılarımız bu yarışlardan medallarla qayıdırlar. Olimpiadada qazanılan medalların sayı ildən ilə artır. Bu, çox yaxşıdır. Düşünürəm ki, Tokio-2020 Olimpiadası bizim üçün məsuliyyətli olacaq. Çalışmalıyıq ki, nəticələrimiz əvvəlki olimpiadalardan daha yüksək olsun. Bunun üçün potensial imkanları olan idmançılarımız kifayət qədərdir.

Azərbaycan idmançıları bu il Argentinanın Buenos-Ayres şəhərində keçirilən Yeniyetmələrin III Yay Olimpiya Oyunlarında yaxşı nəticə göstərdilər. Düzdür, bu nəticə Sinqapur-2010 və Nankin-2014 Olimpiadası ilə müqayisədə o qədər də yüksək nəticə deyil, amma etiraf edək ki, Buenos-Ayres-2018-ə seçim qaydaları da çox çətin idi. Olimpiadaya lisenziyanı ancaq çempion olan idmançı ala bilərdi. Burada məqsəd hər idman növü üzrə bütün qitələrdən atletlərin iştirakını təmin etmək idi. Sinqapurda və Nankində ənənəvi idman növü olan güləşdə 5 idmançımız iştirak etdiyi halda, Buenos-Ayresdə cəmi 2 idmançımız yarışırdı. Bu da istər-istəməz medal sayına və əyarına öz təsirini göstərdi. Bu olimpiadanın üstünlüyü müxtəlif idman növlərində təmsil olunmağımız oldu. Məsələn, tennis və üzgüçülük kimi idman növlərində təmsil olunmaqla yanaşı, pis nəticə də göstərmədik. Xüsusilə, tennisçilərimiz komanda yarışlarında gözəl oyun nümayiş etdirdilər. Bu da ölkəmizdə idmana olan diqqət və qayğının nəticəsi kimi bu sahənin inkişafının göstəricisidir.

Bu olimpiadada qazanılan medallar ayrı-ayrı idman növlərində əldə edilib. Biz bu olimpiyadada cəmi 17 idmançı ilə iştirak edib, 7 medal qazanmışıq. Bu, çox gözəl nəticədir. Hansı ki, biz həmin gənclərin 2020-ci ildən sonrakı dövrdə böyüklər arasında yarışlarda iştirakını gözləyirik. Onlar gələcəkdə Azərbaycanın dünya və Avropa çempionları olacaqlar.

Gələn il Azərbaycanda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcək. İnamla deyə bilərəm ki, Bakı-2019 Olimpiya Festivalı başqalarından mütləq seçiləcək.

1997-ci ildə, cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra idman ölkəmizdə gündən-günə inkişaf edir və nailiyyətlərimiz artır. İndiyə qədər idmanda ən yüksək nailiyyətlərimizi 2017-ci ildə əldə etmişik. Cənab Prezident də qeyd etdiyi kimi, Rioda qazanılan uğuru təkrar etmək çətin olacaq. Buna baxmayaraq, biz çalışacağıq ki, daha yüksək uğurlar qazanaq. Eyni zamanda, biz 2018-ci ili bir növ 2020-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarına hazırlıq ili kimi qəbul edirik.

Azərbaycan idmançıları 2018-ci ili uğurla başa vurdular. Qarşıda atletlərimizi Minsk-2019 Avropa Oyunları, Bakıda keçiriləcək Avropa Gənclər Olimpiya Festivalı və Tokio-2020 Olimpiadası kimi mötəbər yarışlar gözləyir. Əminəm ki, bu yarışlarda da idmançılarımız onlara bəslənilən etimadı doğruldacaqlar.

# Ölkəmiz Beynəlxalq Olimpiya Hərəkatında xüsusi yer tutur

Azərbaycan Respublikasının inkişaf modeli və bütün parametrlər onun Cənubi Qafqazın lider dövləti olduğunu bir daha təsdiqləyir. 1991-ci ildə müstəqil inkişaf yoluna qədəm qoyan ölkəmiz ilk onillik ərzində bütün istiqamətlərdə böyük uğurlara imza ataraq regional əhəmiyyət daşıyan gücə çevrilməyi bacardı. Siyasi, iqtisadi və mədəni sahələrdə yüksək inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Respublikasının dövlət siyasətinin əsas məsələlərindən biri də əhalinin firavan yaşaması, asudə vaxtın səmərəli təşkili, gənc nəslin fiziki və mənəvi cəhətdən sağlam olması, ümumiyyətlə, genofondun qorunmasıdır.



Ölkəmizdə idman və Olimpiya Hərəkatının sürətli inkişafı onu deməyə imkan verir ki, Azərbaycan dünyanın idman dövlətlərindən birinə çevrilib. Əhalisinin sayı cəmi 10 milyon olan ölkəmiz beynəlxalq aləmdə tanınan və seçilən dövlətlərlə rəqabət aparmaq gücünə malikdir. 1992-ci ildən etibarən dünyanın mötəbər idman tədbirlərində - Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında müstəqil ölkə kimi iştirak edən Azərbaycan qısa zaman kəsiyində çox mühüm nailiyyətlərə və parlaq uğurlara imza atmağı bacardı.



1997-ci ildə Milli Olimpiya Komitəsinin yenidən qurulması ilə Azərbaycan idman və Olimpiya Hərəkatında yeni, məhsuldar dövrə start verdi. Həmin vaxtdan indiyə böyük və güclü idmançı ordusuna, möhkəm maddi-texniki bazaya malik olması ölkəmizi müxtəlif mötəbər idman tədbirlərinin mərkəzinə çevirdi. Azərbaycanın tarixdə ilk dəfə Avropa Oyunlarına ev sahibliyi etməsi ölkəmizin beynəlxalq aləmdə tanınmasının, eləcə də, Beynəlxalq Olimpiya Komitəsi və Avropa Olimpiya Komitəsi tərəfindən sayılıb seçilməsinin bir göstəricisi idi. Azərbaycan I Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi etməklə yanaşı, həm də bu yarışları uğurla başa vurdu. İdmançılarımız dövlətimizin, xalqımızın onlara bəslənilən etimadını doğruldaraq, 56 medalla (21 qızıl, 15 gümüş, 20 bürünc) ümumi komanda hesabında Rusiyadan sonra ikinci pillədə yer aldılar. Oyunların yüksək səviyyəli təşkilatçılığı və əldə olunan uğur Azərbaycanın yüksək potensiala malik idman ölkəsi olduğunu bir daha nümayiş etdirdi. Beləliklə, Bakı-2015 ilk Avropa Oyunlarının ardınca 42-ci Ümumdünya Şahmat Olimpiadasına, "Formula-1" üzrə Avropa Qran-pri yarışlarını yüksək səviyyədə təşkil edən Azərbaycan 2017-ci ildə daha bir mötəbər tədbirə - IV İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etdi. 21 idman növü üzrə 54 ölkədən 6 000 idmançının iştirak etdiyi yarış Azərbaycan komandasının qələbəsi ilə yekunlaşdı. Şərqlə qərb arasında körpü rolunu oynayan IV İslam Həmrəyliyi Oyunlarını 162 (75 qızıl, 50 gümüş və 37 bürünc) medalla ilk pillədə başa vuran Azərbaycan bütün gücünü və həmrəyliyini dünyaya nümayiş etdirdi. Bu barədə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin (MOK) prezidenti İlham Əliyev 2018-ci il dekabrın 13-də ilin yekunlarına həsr olunmuş tədbirdə bir daha qeyd etdi: "Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi Oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. Formula-1 yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız - Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir".

Azərbaycan idmanında xidmətləri olan idmançıları, idman mütəxəssislərini mükafatlandıran dövlət başçısı 2018-ci ilin idmanımız üçün uğurlu illərdən biri olduğunu vurğulayaraq bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edildiyini bildirdi: "İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq".

Bütün bunlar bir daha göstərir ki, ölkə başçısı, MOK-un prezidenti İlham Əliyevin rəhbərliyi altında Azərbaycan idmanı sürətlə inkişaf yolundadır və bizi irəlidə növbəti Olimpiya Oyunlarında, dünya və Avropa çempionatlarında daha böyük qələbələr gözləyir.

Olimpiya dünyası



# İdman salnaməsinə həkk olunan tarix

***Azərbaycan idmançılarının beynəlxalq yarışlarda çıxışı dövlət tərəfindən bu sahəyə olan diqqətin təzahürüdür. İdman ictimaiyyəti və ölkəmizi nüfuzlu idman yarışlarında uğurla təmsil edən atletlərimiz bu gün cəmiyyətdə müstəsna rola malikdirlər. İdman sahəsində öz təcrübəsini bölüşən rəsmilər, eləcə də Azərbaycan bayrağını Olimpiya oyunlarında zirvələrdə dalğalandıran idmançılar əldə olunan nailiyyətlər barəsində maraqlı fikirlər bildiriblər. Həmin fikirləri oxucularımıza təqdim edirik.***

## Azərbaycan idmanı dünyada inkişaf üçün ən yaxşı nümunədir



***Ağacan Abiyev,***
***Millət vəkili, Milli Olimpiya Komitəsinin (MOK) baş katibi:***

- Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu idman siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz idmanın kütləviliyinin təmin edilməsi uşaq və yeniyetmələrdə bu sahəyə marağı getdikcə artırır. Prezident İlham Əliyevin idman və bədən tərbiyəsinin sürətli inkişafı, Azərbaycanın beynəlxalq Olimpiya ailəsinin ən qabaqcıl üzvlərindən birinə çevrilməsi istiqamətində atdığı addımlar ölkənin idman ictimaiyyəti tərəfindən minnətdarlıq hissi ilə qarşılanır. Ölkəmizin demək olar ki, bütün bölgələrində inşa edilmiş Olimpiya İdman komplekslərində, müxtəlif təyinatlı idman qurğularında uşaqların idmanla məşğul olması üçün hər cür şərait yaradılıb. İdman infrastrukturunun köklü şəkildə yenidən qurulmasının bəhrəsini görürük. Bu gün idmançılarımız möhtəşəm qələbələri ilə dünyaya səs salıblar. Dünyanın ən sürətlə inkişaf edən ölkələrindən biri olan Azərbaycan, həm də idman dövləti kimi tanınır".

***Azər Əliyev,***
***Milli Olimpiya Komitəsinin (MOK) baş katibinin müavini:***

- Azərbaycan idman ölkəsidir. Bunu artıq bütün dünya, idman ictimaiyyəti bilir. Azərbaycanda idmanın, Olimpiya Hərəkatının inkişafı ilə bağlı məqsədyönlü siyasət aparılır. Artıq neçə illərdir ki, ölkəmizdə irimiqyaslı beynəlxalq yarışlar keçirilir.

Azərbaycan idmançılarının Yeniyetmələrin Yay Olimpiya Oyunlarında qazandığı medallar böyük uğurlar sayıla bilər. İdmançılarımızın hamısı layiqincə çıxış ediblər. Ümid edirəm ki, gənc idmançılarımız, hətta medalsız qalmış gənclərimiz böyüklər arasında dördilliyin əsas oyunlarında da qələbə əzmi nümayiş etdirəcək və ölkəmiz üçün medallar qazanacaqlar. Bu idmançılar hələ çox gəncdirlər. Əgər onlar 2020-ci ildə Tokio Olimpiadasında çıxış etməyə macal tapmasalar belə, ümidvaram ki, 2024-cü ildəki Paris Olimpiadasında ölkəmizi layiqincə təmsil edəcəklər".

***Xəzər İsayev,***
***Milli Olimpiya Komitəsinin vitse-prezidenti:***

- 1997-ci ildə cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin prezidenti seçilməsi ilə Azərbaycanda idmanın sürətli inkişafı başladı. İlk olaraq idman infrastrukturu yenidən quruldu. Hazırda Bakıda və bölgələrdə 45-ə yaxın Olimpiya bazaları tikilib istifadəyə verilib. Bu, idmanın inkişafı prosesində əsas bünövrələrdən biridir. Eyni zamanda, idmançıların stimullaşdırılması məsələsi daim diqqət mərkəzindədir. Bütövlükdə, bu gün Azərbaycan idmanı özünün yüksəliş dövrünü yaşayır.

***Rəfiqə Şabanova,***
***Olimpiya çempionu:***

- Azərbaycan 2015-ci ildə tarixdə ilk dəfə keçirilən Avropa Oyunlarına uğurla ev sahibliyi etdi. Ölkə yığması qitənin güclü idman dövlətlərini geridə qoyaraq 56 medalla (21 qızıl, 15 gümüş, 20 bürünc) 2-ci yeri tutdu. I Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi ilə komandamızın qazandığı uğurlar Azərbaycanın yüksək potensiala malik idman ölkəsi olduğunu bir daha nümayiş etdirdi. Ölkəmiz IV İslam Həmrəyliyi Oyunlarını müvəffəqiyyətlə təşkil etməklə dünyaya idman qüdrətini bir daha göstərdi.

Uğurlarımız davam edir və edəcək. Yeni ildə hər kəsə uğurlar arzulayıram.

***Lyudmila Şubina,***
***Olimpiya çempionu:***

- Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısı sayəsində hər bir sahədə inamla irəliləyir. İdmançılarımız mühüm beynəlxalq yarışlarda gözəl nəticələr əldə edirlər. Olimpiya, dünya və Avropa çempionlarının sayı durmadan artır. İldən ilə uğurlar bir-birini əvəz edir. 2018-ci ildə ölkəmiz üçün uğurlu illərdən biridir. Hər il ənənəvi olaraq ilin yekunları ilə bağlı tədbirdə Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idman ictimaiyyəti qarşısında çıxış etməsi, fərqlənən idmançıları mükafatlandırması bu sahəyə olan diqqət və qayğının əyani göstəricisidir.

***Nazim Hüseynov,***
***Olimpiya çempionu:***

- İdmançı kimi nailiyyətlərim çox olub. Dünyanın ən güclü cüdoçuları ilə mübarizə aparmışam. Lakin Olimpiya Oyunlarının mühiti tam başqadır. Nə qədər təcrübəli olsan da, Olimpiya Oyunlarında təkcə rəqibinlə yox, həm də özünlə mübarizə aparmalı olursan. Çünki həyəcan çox olur. İnsana elə gəlir ki, çempion olmasa, ona bəslənilən bütün ümidlər puç olacaq. Əslindəsə Olimpiya ikincisi, üçüncüsü olmaq da böyük uğurdur. Çox sevinirəm ki, mən o ümidləri doğrultdum. Sağ olsun ki, dövlətimiz bu gün idmançılara belə diqqət və qayğı göstərir.

***Zemfira Meftaxetdinova,***
***Olimpiya çempionu:***

- Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və bu gün onun layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən gender bərabərliyi siyasəti Azərbaycan qadınının cəmiyyətdəki rolunun artırılmasına xidmət edir. Bu gün Azərbaycan qadını ictimai həyatın bütün sahələrində təmsil olunmaqla yanaşı, ölkənin həyatında baş verən ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni proseslərin fəal iştirakçısı kimi dövlətçiliyə xidmət edir və vətənin yüksəlişi naminə töhfələrini verirlər.

İdmançılarımız beynəlxalq arenada öz sözlərini deyir, hər bir yarış zamanı xalqımızı və ölkə rəhbərini sevindirirlər. Ötən il keçirilən Rio-2016 Yay Olimpiya Oyunlarında təmsilçilərimiz 18 medal qazanmaqla böyük uğura imza atdılar və nailiyyətlərimiz yarışdan-yarışa davam edir.

***Namiq Abdullayev,***
***Olimpiya çempionu:***

- Atlanta-1996 Olimpiadada ilk dəfə müstəqil ölkə kimi təmsil olunan Azərbaycan idmançısının gümüş medal qazanması böyük uğur idi. Ölkəmiz medal alan 197 ölkə arasında 61-ci yeri tutdu. Mən komandanın ən yüngül çəkili güləşçisi kimi fəxri kürsünün ikinci pilləsində yer aldım. Bu, Azərbaycan pəhləvanlarının Olimpiya Oyunlarında sərbəst güləş üzrə qazandıqları ikinci, müstəqil Azərbaycan bayrağı altında əldə edilmiş birinci medalı oldu. Mən yarışlarda finala qədər rəqiblərə heç bir şans verməmişdim. Finalda Bolqarıstan təmsilçisi Valentin Yordanovla qarşılaşdım. Yaxşı güləşməyimə baxmayaraq, hakimlər ədalətsizlik göstərərək qələbəni rəqibə verdilər. Bu görüşü izləyən Heydər Əliyev idmançıları qəbul edəndə dedi: "Namiq Abdullayevin gümüş medalı qızıla bərabərdir".

Əldə etdiyim uğurları və nailiyyətləri məhz idmanın sayəsində qazanmışam. İdman sağlamlıq və uzun ömür deməkdir. Bunun üçün ölkəmizdə hər cür şərait yaradılıb.

***Fərid Mansurov,***
***Gənclər və İdman Nazirliyinin idman şöbəsinin müdiri, Olimpiya çempionu:***

- İdman mənim üçün sağlam həyat tərzidir. İdman güclü xarakter, sağlam düşüncədir, prinsipiallıqdır, digərlərindən seçilməkdir, həyatımın ayrılmaz hissəsidir.

Mən hər şeydən əvvəl, öz ölkəsini, vətənini sevən adi azərbaycanlıyam, əsgərəm. Kimliyindən asılı olmayaraq hər bir insan doğulduğu torpağı sevməli, onun keşiyində durmağı bacarmalıdır. Məncə, vətəni sevməyən insan nə valideynlərinin, nə ailəsinin qayğısını çəkə bilməz, öz işində irəli gedə bilməz.

***Elnur Məmmədli,***
***Olimpiya çempionu:***

- 2008-in ilin 11 avqust tarixini hər dəfə xatırlayanda çox qəribə hisslər keçirirəm. Həyəcan, mübarizə əzmi və sevinc... Mənə elə gəlir ki, heç bir sözlə həmin günü təsvir etmək olmaz. Cənab Prezident öz ailəsi ilə birlikdə mənim görüşlərimi əvvəldən axıra kimi izlədi. Bu isə, əlbəttə, həm əlavə məsuliyyət, həm də stimul deməkdir. Məğlub olsa idim, özümü bağışlamazdım. Amma şükürlər olsun ki, çempion adı qazandım. Həmin gün Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva anama zəng edib dedi ki, sizin oğlunuz qəhrəmandır. Bax, mən onda necə böyük bir uğur qazandığımı bir daha başa düşdüm.

***Radik İsayev,***
***Olimpiya çempionu:***

- Olimpiya Oyunlarının mükafatçısı olmaq böyük şərəfdir. İllər keçsə də bu nəticə yaddaşlarda qalacaq. Çox sevinirəm ki, mən də Azərbaycan idmanının, Olimpiya Hərəkatının bir hissəsinə çevrildim. Düzünü desəm, heç vaxt hansı əyarlı medal qazanacağım barədə qarşıma məqsəd qoymamışam. Sadəcə intensiv məşq edirdim. Çalışırdım ki, yarışlarda qələbə qazanım. Lakin hansısa bir pilləni mütləq əldə edəcəyəm deyə bir xəyalım yox idi. Çünki hər bir addımımız Tanrı tərəfindən yazılıb. Bu gün mən mümkün olan bütün titullara sahib olmuşam. Avropa və dünya çempionatının, Bakı-2015-in, Rio Olimpiadasının, IV İslam Həmrəyliyi Oyunlarının qalibi olmuşam. Bunun üçün Tanrıya minnətdaram. Ümid edirəm ki, Azərbaycan idmançılarının uğurlu çıxışı növbəti olimpiadalarda da davam edəcək.

# Respublika Olimpiya İdman Liseyi:
## *keçmişi ilə gələcəyinə örnək olan təhsil məbədi*

Ölkəmizdən idmanın inkişafına idman cəmiyyətləri, klubları, idman növləri üzrə fəaliyyət göstərən federasiyalarla yanaşı, təhsil ocaqları, müəssisə və təşkilatlar da öz töhfələrini verirlər. Respublikamızın qabaqcıl təhsil və idman ocağı olan Respublika Olimpiya İdman Liseyi (ROİL) fəaliyyət göstərdiyi vaxtdan bu günə qədər Azərbaycanda idmanın inkişafında əvəzsiz rol oynayır. Burada təhsil alan məzunlar ölkədaxili yarışlarla yanaşı, ölkə hüdudlarından kənarda da fərqləniblər. Ölkəmizdə yetişən yeniyetmə idmançıların əksəriyyətinin bölgələrdən olan idmançılar olduğunu nəzərə alsaq, onların beynəlxalq arenalarda uğur qazanmasında ROİL-in payını danmaq olmaz. Belə ki, bu idman ocağına

**Respublika Olimpiya İdman Liseyinin yetirmələrinin böyüklər arasında keçirilən Olimpiya Oyunlarında əldə etdiyi nəticələr**

| *İl* | *qızıl* | *gümüş* | *bürünc* |
|---|---|---|---|
| *1988* | *2* | *0* | *0* |
| *1992* | *2* | *0* | *0* |
| *1996* | *0* | *0* | *1* |
| *2000* | *0* | *0* | *0* |
| *2004* | *0* | *1* | *0* |
| *2008* | *1* | *1* | *0* |
| *2012* | *0* | *0* | *2* |
| *2016* | *0* | *0* | *2* |
| *Cəmi* | *5* | *2* | *5* |
| ***Yekun*** | | | ***12 medal*** |

üz tutan uşaq və yeniyetmələr burada müxtəlif idman növlərinin sirlərinə yiyələnirlər. 1963-cü ildən istifadəyə verilən idman təmayüllü internat məktəbinin yaranmasında əsas məqsəd perspektivli idmançıları təhsil müəssisəsinə cəlb etməklə Olimpiya idman növləri üzrə respublika yığma komandalarının ehtiyat qüvvəsini hazırlamaq olub. Respublika Olimpiya İdman Liseyi (ROİL) fəaliyyət göstərdiyi illər ərzində böyük nailiyyətlər əldə edib. Azərbaycanın idman şöhrətini dünyaya tanıdıran, bayrağımızı yüksəklərə qaldıran idmançılarımızın əksəriyyəti böyük idmana gedən yolda ilk addımlarını bu təhsil ocağında atıblar. Onların arasında Avropa, dünya və Olimpiya çempionları da var.

Ölkəmizdə öz qədim ənənələri ilə seçilən güləşin inkişaf etməsinə, bu növ üzrə istedadlı idmançıların yetişməsinə liseydə xüsusi diqqət göstərilir. Bu, təsadüfi deyil ki, idman ocağında 2 qat dünya, 3 qat Avropa çempionu olan Kamandar Məcidov 1988-ci ildə Seulda təşkil olunan XXIV Yay Olimpiya Oyunları çərçivəsində yunan-Roma güləşi üzrə yarışlarda qızıl medala layiq görülüb. Hazırda Belarusda yaşayan həmyerlimiz burada məşqçilik fəaliyyəti ilə məşğul olur. Onun yetirmələri adı çəkilən ölkəni nüfuzlu yarışlarda uğurla təmsil edirlər. Elə həmin yarışda ROİL-in digər təmsilçisi Boris Koretski də mükafatçılar sırasında yer alıb. O, qılıncoynatma yarışlarında qızıl medala sahib çıxıb. Qeyd olunduğu kimi, müstəqillik illərində isə ilk Olimpiya qızılını Nazim Hüseynov qazanıb. Haqqında bəhs etdiyimiz təhsil ocağının yetirməsi olan Nazim Hüseynov 1992-ci ildə Barselonada təşkil olunan XXV Yay Olimpiya Oyunlarının cüdo yarışlarında qızıl medala layiq görülüb. Barselona Olimpiadasında idman gimnastımız Valeri Belenki də qızıl medala sahib çıxıb. 1996-cı ildə Atlantada təşkil olunan XXVI Yay Olimpiya Oyunlarında isə ROİL-in yetirməsi, Rusiyanı təmsil edən Zəfər Quliyev yunan-Roma güləşi üzrə keçirilən yarışlarda fərqlənərək bürünc mükafata sahib olub.

Afina-2004 Yay Olimpiya Oyunlarında isə məktəbin məzunu, Rusiyanı təmsil edən Heydər Məmmədəliyev yunan-Roma güləşi üzrə yarışlarda gümüş medala layiq görülüb.

Respublika Olimpiya İdman Liseyinin yetirmələri Olimpiya Oyunlarında növbəti uğuruna Pekin-2008 Yay Olimpiya Oyunlarında nail olub. Olimpiadanın proqramına daxil olan cüdo yarışlarında ROİL-in yetirməsi Elnur Məmmədli bütün rəqiblərinə qalib gələrək qızıl medala sahib çıxdı. Yunan-Roma güləşçisi Vitali Rəhimov isə gümüş medal qazanıb. İştirak etdikləri hər olimpiadada yüksək nəticələr qazanan idman ocağının yetirmələri üçün növbəti uğur London-2012 Yay Olimpia Oyunlarına təsadüf edib. Belə ki, ROİL-in yetirmələrindən Emin Əhmədov (yunan-Roma güləşi) və Teymur Məmmədov (boks) üçüncü yeri tutub. Cəbrayıl Həsənov (sərbəst güləş) və Rəsul Çunayev (yunan-Roma güləşi) isə 2016-cı ildə Rio-de Janeyroda keçirilən XXXI Yay Olimpiya Oyunlarında bürünc medala sahib çıxıb.

Respublika Olimpiya İdman Liseyinin yetirmələri Yeniyetmələrin Yay Olimpiya Oyunlarında da öz uğurları ilə diqqət çəkiblər. Belə ki, ilk dəfə 2010-cu ildə Sinqapurda təşkil olunan Yeniyetmələrin I Yay Olimpiya Oyunlarında liseyin yetirməsi Murad Bazarov yunan-Roma güləşi üzrə yarışlarda bütün rəqiblərini üstələyərək qızıl medala layiq görülüb. Beləliklə, yeniyetmələrin olimpiadasında ilk medalı Respublika Olimpiya İdman Liseyinin yetirməsi qazanıb. 2014-cü ildə Çinin Nankin şəhərində keçirilən Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında isə İqbal Hacızadə sərbəst güləş yarışlarında hamıdan güclü olaraq birinci yeri tutub. Bu ilin ən mühüm idman hadisələrindən biri olan Buenos-Ayres-2018-də isə ROİL-in iki yetirməsi Vüqar Talıbov və Nurlan Səfərov fəxri kürsüdə yer alıb. Yeniyetmələrin III Yay Olimpiya Oyunları çərçivəsində keçirilən cüdo yarışlarında Vüqar Talıbov bütün görüşlərini qələbə ilə başa vuraraq Argentinada Azərbaycanın üçrəngli bayrağını dalğa-

**Respublika Olimpiya İdman Liseyinin yetirmələrinin Yay Olimpiya Oyunlarında əldə etdiyi nəticələr**

| *İl* | *qızıl* | *gümüş* | *bürünc* |
|---|---|---|---|
| *2010* | *1* | *0* | *0* |
| *2014* | *1* | *0* | *0* |
| *2018* | *1* | *0* | *1* |
| *Cəmi* | *3* | *0* | *1* |
| *Yekun* | | | *4* |

landırıb. İdman ocağının boksçusu Nurlan Səfərov isə bürünc medala layiq görülüb.

Beləliklə, Respublika Olimpiya İdman Liseyinin yetirmələri yeniyetmələrin və böyüklərin Yay Olimpiya Oyunlarında ümumilikdə 16 (8 qızıl, 2 gümüş, 6 bürünc) medal qazanıb. Bu medallardan 12-si (5 qızıl, 2 gümüş, 5 bürünc) böyüklərin Olimpiya Oyunlarında əldə olunub. Yeniyetmələrin Yay Olimpiya Oyunlarında isə ROİL idmançılarının aktivində 4 (3 qızıl, 1 bürünc) medal var.

Özünün tanınmış idmançıları ilə hər zaman fəxr edən liseydə bu gün də gələcəyin olimpiyaçıları yetişir. ROİL-də yunan-Roma güləşi, sərbəst güləş, cüdo, boks, idman gimnastikası, futbol, atletika üzrə perspektivli idmançılar hazırlanır. İnanırıq ki, Respublika Olimpiya İdman Liseyinin yetirmələri gələcək olimpiadalarda da yüksək nəticələr qazanacaqlar.

# İdman salnaməsinə həkk olunan tarix

***Dünya idman elitasında elə idmançılar var ki, adları ilə bu günə qədərdə milyonların yaddaşlarında silinməz iz qoyublar. Onların planetin ən böyük idman tədbiri olan - Olimpiya Oyunlarında əldə etdiyi nailiyyətlər idman tarixinə qızıl hərflərlə həkk olunub. Azərbaycan idmançıları da öz uğurları ilə dünyada tanınırlar. Atletlərimiz müxtəlif idman tədbirlərində, xüsusilə Olimpiya Oyunlarında mükafatçılar sırasına düşüblər. "Olimpiya dünyası" qəzeti ilin yekunlarına həsr olunmuş xüsusi buraxılışda idmançılarımızın Olimpiadalardakı uğurlarına həsr olunmuş yazını təqdim edir.***

Məlumat üçün bildirək ki, Azərbaycan idmançıları Olimpiya oyunlarında 1952-ci ildən 1992-ci ilə kimi ölkəmizi SSRİ yığmasının tərkibində təmsil ediblər. Zəfər yolu Helsinki-1952 Olimpiadasından başladı desək, yanılmarıq. Finlandiya paytaxtında təşkil olunan Oyunlarda SSRİ yığmasının tərkibində güləşçimiz Rəşid Məmmədbəyov gümüş medal əldə edərək, Azərbaycan idmanının ilk Olimpiya medalçısı adını qazandı. Onunla birlikdə atletika yarşlarında Xandadaş Mədətov bürünc medala yiyələndi.

4 il sonra həmin uğuru Melbrunda atletika idman növündə Yuri Konovalov (4x100 m, estafet) yarışlarında, uğurla çıxış edərək vətənə daha bir gümüş medal qazandırdı. Bu, Azərbaycan idmançılarının üçüncü Olimpiya medalı oldu.

1960-cı ildə Roma Olimpiadasında SSRİ yığmasının tərkibində ölkəmizi iki idmançımız - Melburn Olimpiadasının gümüş mükafatçısı atletimiz Yuri Konovalov və vaterpolçu Yevgeni Saltsin təmsil etdilər. Onlar yarışda gümüş medala layiq görüldülər.

Tokio-1964 Olimpiadasında təmsilçilərimiz ilk qızıl medala yiyələndilər. Viktor Mineyev beş növçülükdə topladığı xalların (198) sayına görə birinci yeri tutaraq qızıl medal qazandı.

İnna Rıskal voleybol üzrə yığmanın tərkibində gümüş mükafatçı oldu. Vaterpolçularımız - Nikolay Kuznetsov, Zenon Bortkeviç yığma komandada uğurla çıxış edərək XVIII Yay Olimpiya Oyunlarının bürünc medalına yiyələndilər.

Aydın İbrahimov sərbəst güləş növündə bürünc medala layiq görüldü.

1968-ci ildə Mexiko Olimpiadası Azərbaycan idmançılarının uğuru ilə yadda qaldı. İnna Rıskal ve Vera Lantratovanın da heyətdə çıxış etdiyi yarışlarda yığma komanda Olimpiya çempionu tituluna yiyələndi. İnna Rıskal Mərkəzi Amerikada əldə etdiyi nailiyyəti Münhendə də təkrarladı. XX Yay olimpiya Oyunlarında daha bir medalı isə atletimiz Aleksandr Kornelyuk qazandı. O, 4x100 m estafet yarışının gümüş medalına sahib oldu. Monrealda keçirilən Oyunlarda SSRİ yığmasının tərkibində çıxış etmiş həmyerlimiz İnna Rıskal dörd Olimpiya medalı əldə etdi: - iki qızıl, iki gümüş. Həndbol ilk dəfə Monrealda Olimpiya Oyunlarının proqramına daxil edildi. Bu Olimpiadada SSRİ yığması və onun azərbaycanlı üzvləri Rəfiqə Şabanova və Lüdmila Şubina qızıl medala yiyələndilər.

Moskva- 1980-də həndbolçumuz Larisa Savkina qızıl medala layiq görüldü. Akademik avarçəkmə yarışlarında idmançımız Vasili Yakuşa gümüş medal qazandı. Viktor Pereverzev, Gennadi Kryuçkin və Aleksandr Lukyanov isə ikinəfərlik qayıqda ölkəmizə daha bir gümüş medal gətirdilər. Tatyana Şviqanova isə qadınlar arasında otüstü hokkey yarışlarının gümüş mükafatçısı oldu.

Seul- 1988-də Azərbaycan idmançıları altı medal qazandılar: İlqar Məmmədov, Boris Koretski (qılıncoynatma), İqor Ponomaryov (futbol) - qızıl medal, Aleksandr Lukyanov (avarçəkmə), Yelena Quseva isə (həndbol) bürünc medal.

### *XXII Yay Olimpiya Oyunları, Barselona- 1992*

1992-ci ildə keçiriləcək 25-ci Yay Olimpiya Oyunları ərəfəsində dünyanın siyasi xəritəsi dəyişdi. 1991-ci ilin sonunda SSRİ-nin dövlət quruluşuna son qoyuldu. Onun tərkibinə daxil olan müttəfiq respublikalar müstəqillik qazandılar. Suverenlik əldə etmiş respublikalar öz milli olimpiya komitələrini yaratsalar da, 1992-ci ildə BOK bu komitələrdən çoxunu tanımırdı. Bu da müstəqil dövlətlərin böyük əksəriyyətinin Olimpiya oyunlarında sərbəst iştirak etmək hüququnun olmadığını göstərirdi. Buna görə də keçmiş SSRİ-nin tərkibində olan 15 müttəfiq respublika Olimpiya oyunlarında Müstəqil Dövlətlər Birliyinin (MDB) komandası adı altında çıxış etdi.

***Barselona- 1992- 3 medal:***
***cüdo - 1 qızıl***
***idman gimnastikası - 1 qızıl***
***(komanda), 1 bürünc (şəxsi)***

Beləliklə, komandamız açılış mərasimində təşkil olunan paradda tribunanın altından üçrəngli Azərbaycan bayrağı altında keçirdi. Azərbaycanı Barselona -1992-də 5 idmançımız - Nazim Hüseynov (cüdo), Valeri Belenki (gimnastika), İlqar Məmmədov (qılıncoynatma), Valerii Timoxin (stend atıcılığı), Valentina Popova (stolüstü tennis) təmsil edirdir.

İdmançılarımız arasında ilk qızılı Nazim Hüseynov qazandı. Bu, Azərbaycan idmanının tarixində əlamətdar oldu. İlk dəfə dünyanın ən mötəbər idman yarışında Azərbaycan bayrağı qaldırıldı və himnimiz səsləndi.

Azərbaycan gimnastı Valeri Belenki komanda yarışında Olimpiya qızılına sahib oldu. İdmançımız şəxsi birincilikdə isə bürünc medala layiq görüldü.

## *Barselonadan Rioya qədər: dəyişən rəqəmlər və dəyişməyən çempionlar*




### *XXVI Yay Olimpiya Oyunları, Atlanta - 1996*

Atlanta Olimpiadasında 197 ölkədən 10788 idmançı iştirak edirdi. Atletlər burada idmanın 26 növü üzrə 271 medal dəsti uğrunda mübarizə aparırdılar. Azərbaycan, yarışlarda 4 yüngül atlet (Elvira Cabbarova, Arif Axundov, Vasif Əsədov, Aleksey Fatyanov), 2 yunan-Roma güləşçisi (Vilayət Ağayev və Tahir Zahidov), 6 sərbəst güləşçi (Namiq Abdullayev, Arif Abdullayev, Eyvaz Allahverdiyev, Məmmədsalam Hacıyev, Məhəmməd İbrahimov, Davud Məhəmmədov), 2 cüdoçu ( Nazim Hüseynov, Zülfiyyə Hüseynova), 2 boksçu (Ədalət Məmmədov, İlham Kərimov), 2 ağırlıqqaldıran (Asif Məlikov, Tofiq Heydərov), qılıncoynadan Elxan Məmmədov, üzgüçü Emin Quliyev, suya tullanan Emin Cəbrayılov, atıcılıq idmanı üzrə İradə Aşumova və Sergey Timoxin təmsil edirdilər.

***Atlanta - 1996 - 1 medal:***
***güləş (Sərbəst güləş) - 1 gümüş***

Komandamızın ən yüngül çəkili güləşçisi, ikiqat Avropa çempionu Namiq Abdullayev isə ona olan ümidləri doğrultdu. Onun qazandığı gümüş medal Azərbaycan pəhləvanlarının Olimpiya Oyunlarında sərbəst güləş üzrə qazandıqları ikinci, müstəqil Azərbaycan bayrağı altında əldə edilmiş birinci medal idi.

Atlanta Olimpiya Oyunlarında 23 idmançı ilə təmsil olunan Azərbaycan komandası 197 ölkə arasında 61-ci yeri tutdu.

### *XXVII Yay Olimpiya Oyunları, Sidney - 2000*

199 ölkənin iştirak etdiyi növbəti XXVII Yay Olimpiya Oyunlarında Azərbaycan müstəqil dövlət kimi ikinci dəfə olimpiadada iştirak edirdi. Ölkəmiz Sidneydə 31 idmançı ilə təmsil olunurdu.

Azərbaycan idmançıları cüdo, üzgüçülük, atıcılıq, boks, atletika, ağırlıqqaldırma, suyatullanma və güləş yarışlarında güclərini sınayırdılar. Atletlərimiz cüdo, boks, güləş, atıcılıq yarışlarında uğurlu nəticələr göstərdilər. Azərbaycan komandasına ilk medalı qadınlar arasında stend atıcılığı yarışlarında Zemfira Meftaxetdinova qazandırdı.

Onun çıxış etdiyi idman növü ilk dəfə olaraq Olimpiya Oyunlarının proqramına daxil edilmişdi. Zemfira bu növdə iki Olimpiya rekordu müəyyən etdi. Ölkəmizə ikinci qızıl medalı Atlanta Oyunlarının gümüş mükafatçısı, güləşçi Namiq Abdullayev gətirdi.

***Sidney - 2000 - 3 medal:***
***atıcılıq (stend) - 1 qızıl***
***güləş (Sərbəst güləş) -1 qızıl***
***boks - 1 bürünc***

Sidney-2000 Yay Olimpiya Oyunlarında Azərbaycan boksunun salnaməsinə də ilk Olimpiya medalı yazıldı. 19 yaşlı gənc boksçu Vüqar Ələkbərov bürünc medala sahib oldu.

Azərbaycan komandası cüdoda dörd idmançı ilə təmsil olundu.

İki qızıl və bir bürünc medalla Azərbaycan medal alan ölkə arasında 34-cü yeri, Avropa ölkələri arasında isə 23-cü yeri tutdu. Azərbaycan idmanı Sidney sınağından zəfərlə çıxdı.

### *XXVIII Yay Olimpiya Oyunları, Afina - 2004*

Afina-2004 Olimpiya Oyunlarında Azərbaycan idmanının yeni şanlı səhifəsini yazıldı. 21-ci minilliyin ilk Olimpiya Oyunlarında 12 idman növündə 38 idmançı ilə təmsil olunan Azərbaycan milli komandası bu möhtəşəm yarışdan vətənə 1 qızıl, 4 bürünc medalla qayıtdı. Bu oyunlarda BOK-un üzvü olan 204 ölkədən 202-si iştirak edirdi.

Yarışlarda 11039 idmançı 2021 medal, o cümlədən 669 qızıl, 666 gümüş və 686 bürünc medal uğrunda mübarizəyə qoşulmuşdu. Azərbaycan milli komandası 38 idmançı ilə idmanın 12 növündə təmsil olunurdu.

Atletlərimiz XXVIII Yay Olimpiya Oyunlarında 5 medal (1 qızıl, 4 bürünc) qazandılar. Yunan-Roma güləşi üzrə 66 kq çəki dərəcəsində 22 yaşlı Fərid Mansurov fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl, atıcılıq üzrə yarışlarda kiçik çaplı tapançadan 25 metr məsafəyə atəş açmada İradə Aşumova və stend atıcılığı üzrə təmsilçimiz, Sidney-2000 Olimpiadasının qızıl mükafatçısı Zemfira Meftaxetdinova Azərbaycan yığmasının hesabına iki bürünc medal yazdırdılar.

***Afina - 2004- 5 medal:***
***güləş (yunan-Roma) - 1 qızıl***
***atıcılıq (stend) - 2 bürünc***
***boks - 2 bürünc***

Afinada yarımfinala yüksələn ilk Azərbaycan boksçusu Ağası Məmmədovun çəki problemi onu bürünc medalla kifayətlənməyə məcbur etdi. Ölkəmizin aktivinə yazılan 4 bürünc medaldan biri isə digər boksçumuz Fuad Aslanovun payına düşdü.

### *XXIX Yay Olimpiya Oyunları, Pekin- 2008*

XXIX Pekin Yay Olimpiya Oyunlarında ölkəmiz 12 - güləş (sərbəst güləş (7), yunan-Roma güləşi (6) və qadın güləşi (3)), taekvondo (1), gimnastika (qrup hərəkətləri üzrə komanda 6, fərdi yarışlarda 2), boks (2), atıcılıq (1), atçılıq (1), üzgüçülük (2), cüdo (6), atletika (2) və ağırlıqqaldırma (5) idman növlərində 44 idmançı ilə təmsil olunurdu. Bu yarışda təmsilçilərimiz digər Olimpiya Oyunlarından həm idmançıların, həm də qazanılan medalların sayına görə fərqlənirdi. Komandamız Olimpiya Oyunlarında ilk dəfə olaraq hər üç əyarda medallar qazandılar.

Maraqlıdır ki, atletlərimiz ilk dəfə olimpiadanın atçılıq yarışlarında və bədii gimnastika üzrə qrup hərəkətlərində qüvvələrini sınadılar. Bundan əlavə, Pekin-2008 qadın güləşçilərimizin olimpiadaya aparıldığı ilk olimpiada kimi tarixə düşdü.

Ölkəmizə Olimpiya qızılını cüdoçumuz Elnur Məmmədli (73 kq) qazandırdı. Gümüş medalları yunan-Roma güləşində əldə etdik. Rövşən Bayramov (55 kq), Vitali Rəhimov (60 kq) yarışları ikinci pillədə başa vurdular. Sərbəst güləşçimiz Xetaq Qazyumov (96 kq) bürünc medala layiq görüldü. Mariya Stadnik (48 kq) təsəlliverici yarışlarda qalib gələrək yeni nəticə göstərdi. Boksçumuz Şahin İmranov (57 kq) zədə üzündən bürünc medalla kifayətləndi. 1/2 finalda uduzan Mövlud Mirəliyev (100 kq) cüdo yarışında üçüncü yeri tutdu.

***Pekin - 2008 - 6 medal:***
***cüdo - 1 qızıl, 1 bürünc***
***güləş - 1 gümüş, 2 bürünc***
***boks - 1 bürünc***

Beləliklə, Pekində keçirilən XXIX Yay Olimpiya Oyunlarında Azərbaycan yığması 7 medalla (1 qızıl, 2 gümüş, 4 bürünc) 204 ölkə arasında medalların sayına görə 27-ci, medalların növünə görə isə 39-cu yeri tutdu.

### *XXX Yay Olimpiya Oyunları, London-2012*

Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında 204 ölkədən 10 957 idmançı iştirak edirdi. 16 gün ərzində keçirilən möhtəşəm idman tədbirində 26 idman növündə 302 dəst medal öz sahibini tapıb. Bu ölkələrin 54 idmançısı çempionluq zirvəsinə yüksəlib. Medalçı ölkələr siyahısında 1-ci yeri ABŞ, 2-ci yeri Çin, 3-cü yeri isə Böyük Britaniya tutub. Azərbaycan Olimpiya yığması 2 qızıl, 2 gümüş və 6 bürünc medalla ümumi hesabda 30-cu pillədə qərarlaşıb.

Azərbaycan Respublikasının dövlət bayrağını London-2012 Yay Olimpiya Oyunlarında Pekin-2008 Olimpiadasının çempionu Elnur Məmmədli apardı. Azərbaycanın Olimpiya yığmasının 53 üzvü idmanın 16 növündə təmsil olunurdu. Velosiped, avarçəkmə, qadın boksu, idman gimnastikası yarışlarında idmançılarımız ilk dəfə qüvvələrini sınayırdılar.

***London - 2012- 10 medal:***
***güləş - 2 qızıl, 2 gümüş, 3 bürünc***
***boks - 2 bürünc***
***ağırlıqqaldırma -1 bürünc***

Londonda keçirilən XXX Yay Olimpiya Oyunlarında Azərbaycana ilk medalı ağırlıqqaldırma üzrə yarışlarda 56 kq çəki dərəcəsində mübarizə aparan idmançımız Valentin Xristov qazandırdı. 286 kq nəticə göstərən idmançımız bürünc medala sahib çıxdı.

London-2012 Olimpiadasında güləşçilərimizdən Toğrul Əsgərov və Şərif Şərifov Olimpiya çempionu adına layiq görüldülər. Xetaq Qazyumov isə olimpiadanın bürünc mükafatını qazandı. Beləliklə, sərbəst güləş üzrə Azərbaycan komandası London Olimpiadasını 2 qızıl və 1 bürünc medalla başa vurdu. Sevindirici haldır ki, sərbəst güləş üzrə Azərbaycan yığması dünyanın aparıcı ölkələrini qabaqlayaraq ABŞ-la birgə 1-ci yeri tutdu. London-2012 Olimpiadasının qızıl medalını 20 yaşı tamam olmamış qazanan Toğrul Əsgərov həm də ən gənc çempion kimi Olimpiya tarixinə düşdü.

Yunan-Roma güləşi üzrə yarışlarda yığmamızın 2 üzvü Rövşən Bayramov (55 kq) ikinci, Emin Əhmədov (74 kq) üçüncü yeri tutdular. Bununla komandamız London-2012-də yunan-Roma güləşi üzrə yarışlarda 5-ci pillədə qərarlaşdı.

Qadın güləşi üzrə yarışlarda Mariya Stadnik (48 kq) gümüş, Yuliya Ratkeviç (55 kq) bürünc medala sahib çıxdı. Bununla da ölkəmiz qadın güləşi yarışlarında 3-cü oldu. Olimpiadanın güləş proqramında 18 dəst medal uğrunda 13 atletimiz yarışdı. Güləşçilərimiz ümumilikdə 2 qızıl, 2 gümüş və 3 bürünc medalla mükafat qazanan 29 ölkə arasında 4-cü oldular. Beləliklə, Azərbaycan Olimpiya yığması, London-2012-də 10 medal (2 qızıl, 2 gümüş və 6 bürünc) qazanaraq yarışları medalçılar siyahısında 30-cu pillədə başa vurdu.

*(ardı 5-ci səhifədə)*

# İdman salnaməsinə həkk olunan tarix



(əvvəli 4-cü səhifədə)

*XXXI Yay Olimpiya Oyunları, Rio-2016*

Rio-2016 XXXI Yay Olimpiya Oyunları Azərbaycan idmanı üçün əlamətdar və yaddaqalan olub. Avqustun 5-dən 21-dək Rio-de-Janeyronun dörd rayonunda - Deodoro, Barra, Kopakabana və Marakanada keçirilən Olimpiadada 306 yarış təşkil edilib və ümumilikdə, 2102 medal sahiblərinə təqdim olunub. XXXI Olimpiadada rekord sayda - 206 ölkədən 11 mindən çox idmançı mübarizə aparıb.

XXXI Yay Olimpiya Oyunlarında atletlər idmanın 39 növü üzrə mübarizə aparıblar. Qolf 112, reqbi isə 92 illik fasilədən sonra yenidən Olimpiya Oyunlarının proqramına salınıb. Bütün yarışlar 37



arenada təşkil olunub. Olimpiadada iştirak edən ölkələrdən yalnız 87-si müxtəlif əyarlı medallar qazana bilib.

Olimpiya Oyunlarında iştirak edən Azərbaycan atletləri 1 qızıl, 7 gümüş və 10 bürünc olmaqla 18 medal qazanaraq bu möhtəşəm yarışı medal qazanan ölkələr arasında 39-cu pillədə başa vurublar. Bu göstərici ilə Gürcüstandan geri qalan ölkəmiz Belarus, Türkiyə və Ermənistandan önə keçib. Medal sayında isə Azərbaycan Yeni Zelandiya ilə birgə 14-15-ci yerləri bölüşüb.

Qeyd edək ki, Azərbaycan yığma komandası XXXI Yay Olimpiya Oyunlarında əvvəlki olimpiadalarla müqayisədə daha geniş tərkibdə - idmanın 18 növü üzrə 56 idmançı (57 lisenziya) təmsil olunub. Bu, London-2012 Yay Olimpiya Oyunları ilə müqayisədə 4 idman növü çoxdur. Ölkəmiz triatlon, kamandan oxatma, velosiped və kanoe-slalom idman növlərində ilk dəfə təmsil olunub. Olimpiadada ölkəmizi təmsil edən 56 idmançıdan 36-sı ilk dəfə Olimpiya Oyunlarında iştirak

**Azərbaycan atletləri 1992-2016-cı illərdə keçirilən Yay Olimpiya Oyunlarında 47 medal qazanıb ki, onun 8-i qızıl, 13-ü gümüş və 26-ı isə bürünc medaldır.**

edib. Rio-de-Janeyroda Azərbaycan güləş, gimnastika və boks yarışlarında 3 hakimlə də təmsil olunub. Komandamıza yeganə qızıl medalı taekvondoçu Radik İsayev qazandırıb. Sərbəst güləşçilər Toğrul Əsgərov, Xetaq Qazyumov, boksçu Lorenzo Sotomayor, cüdoçular Rüstəm Orucov və Elmar Qasımov, qadın güləşçimiz Mariya Stadnik və kanoeçi Aleksandr Demyanenko yalnız final görüşlərində uduzaraq gümüş medala sahib olublar.

Taekvondo yarışlarında Milad Beiqi Harçeqani və Patimat Abakarova, boksçu Kamran Şahsuvarlı, güləşçilər Rəsul Çunayev, Sabah Şəriəti, Nataliya Sinişin, Hacı Əliyev, Cəbrayıl Həsənov və Şərif Şərifov, avarçəkən İnna Osipenko-Radomskaya isə bürünc medalla kifayətləniblər.

Olimpiadada hesabında 121 medal (46 qızıl, 37 gümüş və 38 bürünc) olan ABŞ birinci olub. Böyük Britaniya 67 medalla (27 qızıl, 23 gümüş, 17 bürünc) ikinci, Çin 70 medalla (26 qızıl, 18 gümüş və 26 bürünc) üçüncü pillədə yer alıb.

İlk onluğu Rusiya (19-18-19), Almaniya (17-10-15), Yaponiya (12-8-21), Fransa (10-18-14), Cənubi Koreya (9-3-9), İtaliya (8-12-8) və Avstraliya (8-11-10) tamamlayıb.

## Barselonadan Rioya qədər: dəyişən rəqəmlər və dəyişməyən çempionlar

### Rio-2018-də yeni bir "ilk"

Rio-2016 Azərbaycan Olimpiya yığması üçün maraqlı məqamları ilə yanaşı, rekordları ilə də yadda qalıb. Olimpiyaçılarımız həm qazandıqları medal sayına görə, həm də taekvondo, boks və avarçəkmədə yeni tarix yazmaqla çoxsaylı rekordlar əldə ediblər.

Şübhəsiz ki, Olimpiya yığmamızdan ən yaxşı nəticəni taekvondoçularımız göstəriblər. Yay Olimpiya Oyunlarına ilk dəfə tam heyətlə (4 idmançı) yollanan taekvondoçularımız yüksək nəticəyə imza atıblar. Ölkəmiz yeganə qızıl medalı da məhz bu idman növündə qazanıb. Bu, həm də Olimpiya Oyunlarında ölkəmizin idman tarixində taekvondo idman növündə ilk "qızıl"ıdır. Komandamızın aparıcı üzvlərindən olan Radik İsayev öz çəkisində (+80 kq) planetin ən güclü, olduğunu sübut edib. O, həlledici görüşdə Abdulrazzak İssufu 6:2 hesabı ilə məğlub edərək Olimpiya çempionu adını qazanıb.



Olimpiadada Patimat Abakarova-nın (49 kq) və Miladi Beiqi Herçeqaninin (80 kq) bürünc mükafatları taekvondo üzrə milli komandamızın qadınlar və kişilər arasında əldə etdiyi ilk medal idi. Qadın taekvondoçumuz Fəridə Əzizova (67 kq) isə olimpiadada 5-ci yeri tutub. Təmsilçilərimiz 1 qızıl və 2 bürünc olmaqla, ümumilikdə 3 medal qazanaraq bu idman növündə tarixi nailiyyət əldə ediblər. 4 taekvondoçumuzdan 3-nün medal qazanması idmançı sayına nisbətdə 75 faiz nəticə anlamına gəlir. Bu da taekvondoçuların olimpiadada möhtəşəm uğuru deməkdir. Rio-2016-da qazanılan nəticələrə görə 4-cü yeri tutaraq, ən yaxşı yığmalardan biri kimi tarixə düşən taekvondo üzrə Azərbaycan millisi Olimpiadanı MDB ölkələri arasında 1-ci, Avropada isə 2-ci yerdə başa vurub.

### Güləş

Yay Olimpiya Oyunlarında medal qazanan atletlərimiz arasında güləşçilərimiz, bir qayda olaraq, xüsusilə fərqləniblər. Rio-2016-da qələbə uğrunda mübarizə aparan güləşçilərimizdən də təbii ki, yüksək nəticələr gözlənilirdi. Ən müxtəlif səviyyələrdə verilən bu proqnozları olimpiadada iştirak edən güləşçilərimiz layaqətlə doğrultdular. Olimpiadanın güləş yarışlarında 14 idmançı ilə çıxış edən milli komandamız 3 gümüş və 6 bürünc olmaqla 9 medal qazandı. Bu nəticə ölkəmizin müstəqil dövlət kimi indiyədək iştirak etdiyi Olimpiya Oyunları ilə müqayisədə güləş idman növündə ən çox medal qazanılan yarışlardır. Ölkəmizin Olimpiya tarixində yeni bir səhifə açan güləşçilərimiz qazanılan medalların sayına görə Rusiya ilə ilk sıranı bölüşdürüblər - hərəyə 9 medal.



Yarışların ilk üç günündə baş məşqçi Cəmşid Xeyrabadi, böyük məşqçi Nurəddin Rəcəbov və məşqçi Akif Əliyevin rəhbərliyi altında 5 çəki dərəcəsində mübarizə aparan yunan-Roma güləşçilərimizdən Rəsul Çunayev (66 kq) və Sabah Şəriəti (130 kq) bürünc medal qazanıblar. Bu nəticə ilə yunan-Roma üzrə yığmamız Dünya Güləş Birliyinin (DGB) ənənəvi reytinq sıralamasında 3-cü olub. Qadın güləşçilərin yarışında 3 idmançımız 1 gümüş və 1 bürünc medal əldə edib. Mariya Stadnik (48 kq) yalnız finalda uduzaraq gümüş, Nataliya Sinişin (53 kq) isə bürünc medal qazanıb. Bu nəticə ilə qadın güləşi yığmamız DGB-nin reytinq sıralamasında 4-cü yerdə qərarlaşıb.

Sərbəst güləş üzrə yarışlarında öz qüvvəsini sınayan 6 pəhləvanımızdan - Toğrul Əsgərov (65 kq) və Xetaq Qazyumov (97 kq) gümüş, Hacı Əliyev (57 kq), Cəbrayıl Həsənov (74 kq) və Şərif Şərifov (86 kq) isə bürünc medal qazanıblar.

Azərbaycan pəhləvanlarının Rio-2016-da qazandıqları bu nəticələr yeni mərhələ hesab olunur. Statistik göstəricilər də medalların sayındakı artımı sübut edir. Belə ki, 1996-cı ildə Atlantada keçirilən Yay Olimpiya Oyunlarında 1 gümüş, 2000-ci il Sidneydə keçirilən Olimpiadada 1 qızıl, 2004-cü ildə Afinada keçirilən Olimpiadada 1 qızıl, 2008-ci ildə Pekində keçirilən Olimpiadada 2 gümüş, 2 bürünc, ümumilikdə 4 medal, 2012-ci ildə Londonda keçirilən Olimpiadada isə 2 qızıl, 2 gümüş, 3 bürünc olmaqla yekunda 7 medal qazanan güləşçilərimiz Rio-2016 Olimpiya Oyunlarında 3 gümüş və 6 bürünc olmaqla, ümumilikdə 9 medal əldə ediblər.

Qeyd edək ki, Mariya Stadnik və Xetaq Qazyumov ardıcıl üç Olimpiadada mükafatçı olan ilk idmançılar kimi ölkənin idman tarixinə imza atıblar.

Müstəqillik qazandıqdan sonra Azərbaycan 6 yay Olimpiya Oyunlarında iştirak edib. Müqayisə üçün bildirək ki, olimpiyaçılarımız üçün ən uğurlu növ, şübhəsiz ki, güləşdir. Qazanılan medalların yarıdan çoxu (23 medal) məhz pəhləvanlarımızın aktivindədir. Əldə etdiyimiz 7 qızılın da yarıdan çoxu (4 medal) bir nömrəli idman növünün payına düşür. Müstəqillik illərimizdə iştirak etdiyimiz bütün yay Olimpiya Oyunlarında güləşdə medal qazanmağımız, bu idman növünün fərqləndirən cəhətlərdən biridir. Rio-2016-da 9 medal əldə edən pəhləvanlarımız əvvəlki olimpiadaya bütün yığmamız üçün arzulanan bir göstəriciyə imza atıblar.

### Cüdo

Olimpiyaçılarımız cüdo yarışlarında 7 gün ərzində 14 dəst medal uğrunda mübarizə aparıblar. Olimpiadada 6 kişi cüdoçu ilə qələbə uğrunda mübarizəyə qoşulan Azərbaycan millisi 2 gümüş medal qazanmaqla Olimpiya komandamıza ilk medal sevincini yaşadıb. Rüstəm Orucov (73 kq) və Elmar Qasımov (100 kq) finaladək olan rəqiblərini məğlub edərək, yalnız həlledici qarşılaşmada uduzublar. Digər cüdoçularımız da qələbə uğrunda səylə mübarizə aparsalar da, medal qazana bilməyiblər. Lakin Olimpiya Oyunlarında ilk səkkizlikdə yer almaq özü də bir nəticədir. Belə ki, cüdoçularımızdan Orxan Səfərov (60 kq) Olimpiadanı 5-ci, Məmmədəli Mehdiyev (90 kq) isə 7-ci yerdə başa vurub.



London-2012 ilə müqayisədə cüdoçularımızın nəticələrini qənaətbəxş hesab etmək olar. Cüdo yarışlarında iştirak edən 136 ölkədən yalnız 26-sı medal qazanıb. Azərbaycan cüdoçularının qazandıqları 2 gümüş medal yığmamızı medal sıralamasında 12-ci yerə yüksəldib. Ölkəmiz postsovet məkanında yalnız Rusiyadan geri qalaraq 2-ci olub. Qeyd edək ki, kişilərdən ibarət komandaların medal sıralamasında yığmamız daha yüksək- 6-cı yeri tutub. Bu nəticəyə cüdo üzrə milli komandamızın yalnız kişi cüdoçularla təmsil olunması təsir edib. Belə ki, ümumi sıralamada olduğu kimi kişilərin hesabında da Yaponiya 1-ci olub. Maraqlıdır ki, 7-si kişi, 5-i qadın olmaqla asiyalılar isə ümumilikdə 12 medal qazanıblar.

**Müstəqillik illərində Azərbaycan idmançılarının Olimpiya Oyunlarında qazandıqları medalların əyarlarının siyahısı**

| | |
|---|---|
| *Barselona-1992* | *3 medal - 2 qızıl, 1 bürünc* |
| *Atlanta-1996* | *1 medal - 1 gümüş* |
| *Sidney-2000* | *3 medal - 1 qızıl, 1 gümüş, 1 bürünc* |
| *Afina-2004* | *5 medal -1 qızıl, 4 bürünc* |
| *Pekin-2008* | *7 medal -1 qızıl, 2 gümüş, 4 bürünc* |
| *London-2012* | *10 medal - 2 qızıl, 2 gümüş, 6 bürünc* |
| *Rio-2016* | *18 medal -1 qızıl, 7 gümüş, 10 bürünc* |

### Boks

Azərbaycan atletlərinin Rio-2016-da qazandıqları medalların sırasına boksçularımız da 1 gümüş və 1 bürünc medal əlavə etməklə, həm bu idman növündə, həm də ölkəmizin Olimpiya tarixində böyük bir uğura imza atıblar. Azərbaycan boksçusunun finala yüksəldiyi 12 ölkədən biri olub. Belə ki, Olimpiadanın proqramına daxil olan boks idman növündə 13 medal dəsti uğrunda mübarizə aparan 11 boksçumuzdan - Lorenzo Sotomayor (64 kq) gümüş, Kamran Şahsuvarlı (75 kq) isə bürünc medal qazanıblar. Ölkəmizin boks tarixinə ilk və hələlik yeganə finalçı kimi düşən idmançımız L.Stomayorun qızıl medalı boynundan asmaq şansı olsa da, o, final qarşılaşmasında özbəkistanlı rəqibi Fazliddin Qaybnəzərova uduzaraq, gümüş medal qazanıb. Qeyd etmək lazımdır ki, hakimlərin ədalətsizliyi də boksçumuzun qızıl medal qazanmaq uğrundakı mübarizəsinə mane olub. Nəticədə Olimpiya Oyunlarını 1 gümüş və 1 bürünc medalla başa vuran boks komandamız Olimpiadada 10-cu yerə çıxıb. Kolumbiya ilə eyni göstəriciyə malik ölkəmiz, Qazaxıstanın boksçuları Asiyada mübarizə apardığından, Fransa, Rusiya və Böyük Britaniyadan sonra Avropada 4-cü olub. Medal sayında birinci yeri tutan Özbəkistan Kuba ilə eyni sayda qızıl medal qazansa da, digər mükafatlarda onları qabaqlayıblar. Fransa isə üçüncü olub. Ümumilikdə, bu idman növündə 19 ölkənin boksçusu medal qazanıb.



London-2012-də Teymur Məmmədovla Məmmədrəsul Məcidovun hər birinin fəxri kürsününü üçüncü pilləsində qərarlaşdığını nəzərə alsaq, Rio-2016-nı boksçularımız üçün də uğurlu hesab etmək olar.

### Avarçəkmədə gümüş medal və idman salnaməsində yeni səhifə

XXXI Yay Olimpiya Oyunları ölkəmiz üçün həm də onunla əlamətdar oldu ki, ilk dəfə olaraq avarçəkmə idman növündə də 1 gümüş və 1 bürünc olmaqla 2 medal qazanılıb. Belə ki, Valentin Demyanenko birnəfərlik kanoe qayığında 200 metr məsafədə gümüş, İnna Osipenko-Radomskaya isə birnəfərlik kayak qayığı ilə 200 metr məsafəyə yürüşdə bürünc medal əldə edib. Azərbaycan Olimpiya Oyunlarında avarçəkmə idman növündə ilk dəfə medal qazanaraq idman tariximizdə yeni səhifə yazıb.



Beləliklə, olimpiyaçılarımız yüksək əzmkarlıq sayəsində 18 medal qazanıblar. Bunun sayəsində Azərbaycan Olimpiya Hərəkatında və idman tarixində yeni səhifə açılıb. Şübhəsiz ki, qazanılan 18 medal uşaq və gənclərimizi idmana həvəsləndirən əsas stimullardan biridir. Ümid edirik ki, adıçəkilən idmançılardan ilhamlanıb zallara ayaq basan uşaq və yeniyetmələr növbəti olimpiadalarda ölkəmizi layaqətlə təmsil edərək, başqalarına da nümunə olacaqlar.

# "Olimpiya dünyası"nın Olimpiya Oyunları foto-arxivindən





























# İdman salnaməsinə həkk olunan tarix

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Yeniyetmə idmançılarımız Olimpiya oyunlarında





Azərbaycanın nüfuzunu günbəgün artıran, onu dünyaya geniş miqyasda tanıtdıran amillərdən biri də idmançılarımızın beynəlxalq turnirlərdə qazandıqları nailiyyətlərdir. Ümumiyyətlə, idman ölkələrin tanınmasında prioritet sahələrdən biridir. Əldə edilən qələbədən sonra dövlət bayrağının qaldırılması, himnin səsləndirilməsi bu və ya digər ölkənin daha yaxından tanınmasına zəmin yaradır. Dövlətimizin iqtisadi və siyasi gücü Azərbaycanın ən iri dövlətlərlə eyni səviyyədə dayanmasına imkan verir. Bununla belə, idman sahəsində atılan addımlar, beynəlxalq aləmdə qazanılan nüfuz, atletlərimizin idman arenalarında ciddi rəqibə çevrilməsi də ölkəmizin şöhrətini ildən-ilə, yarışdan-yarışa ucaldan amildir. İdmanın şöhrət zirvəsində yer alan uşaq və gənclərimizin vətənpərvərlik, dünyəvilik prinsipləri əsasında tərbiyə olunması, onların fiziki və mənəvi inkişafı da Azərbaycan dövlətinin əsas vəzifələrindən biridir. Uşaq və gənclərə göstərilən əvəzsiz qayğı ölkəmizin, millətimizin gələcəyi olan nəslin güclü xarakterə, sağlam ruha malik olmasında başlıca rol oynayır. Bu gün Azərbaycanda fiziki və mənəvi cəhətdən sağlam, bütün varlığı ilə xalqına, vətəninə bağlı olan bir nəsil yetişib. Sözsüz ki, bütün bunlar Azərbaycan dövlətinin gənc nəslə qayğısından qaynaqlanır. Sevindirici haldır ki, uşaq və gənclərimiz də dövlətimizin onlara göstərdiyi bu diqqət və qayğıdan lazımınca yararlanırlar. Buna misal olaraq yeniyetmə idmançılarımızın dünya, Avropa və Olimpiya Oyunlarında əldə etdiyi uğurlu nəticələri göstərmək olar. Danılmaz faktdır ki, peşəkar idmana gedən yolun əsası məhz yetiyetməlik vaxtlarından qoyulur. Əgər bir uşaq və yeniyetmənin təməli möhkəm sütunlar üzərində qurulursa, bu, həmin uşağın gələcəkdə böyük şəxsiyyət kimi formalaşmasında, Azərbaycan üçün layiqli vətəndaş kimi yetişməsində böyük rol oynayacaq. Bu gün Azərbaycanın idman şərəfini beynəlxalq arenalarda qoruyan minlərlə yeniyetmə və gənc var. Onların hər birinin ali məqsədi fiziki və mənəvi cəhətdən sağlam olmaqla yanaşı, dövlətimizin adını beynəlxalq aləmdə uca tutmaqdır. Belə idmançılar arasında Yeniyetmələrin Olimpiya Oyunlarında mükafat qazanan atletlərimizin payını xüsusilə qeyd etmək olar. Onlar hər bir hərəkəti ilə özlərindən sonra gələn gənc nəslə bir növ nümunədirlər. Məlumat üçün qeyd edək ki, Azərbaycan idmançıları yeniyetmələrin Olimpiya Oyunlarında bu günə qədər 27 (13 qızıl, 9 gümüş, 5 bürünc) medal əldə ediblər. Bunlardan 8-i (5 qızıl, 3 gümüş) Sinqapur-2010 Olimpiadasında qazanılıb. Çinin Nankin şəhərində keçirilən Yeniyetmələrin II Yay Olimpiya Oyunlarında isə atletlərimiz 12 medala (5 qızıl, 6 gümüş, 1 bürünc) layiq görülüblər. Sonuncu - Buenos-Ayres-2018 Olimpiadasında isə idmançılarımız 7 (3 qızıl, 1 gümüş, 3 bürünc) medala sahib çıxıblar. Sevindirici haldır ki, bu idmançılarımız öz uğurları ilə digər yeniyetmələrə də nümunə olurlar. Bu isə idmanın kütləviliyinə, daha çox uşaq və yeniyetmənin idmana cəlb olunmasına təkan verir. Yeniyetmələrin Olimpiya Oyunlarında medal qazanan idmançılarla söhbətimiz zamanı da bu məsələlərə toxunduq.

### Məktəbdə hər kəs məni nümunəvi idmançı kimi göstərirdi

Yeniyetmələrin Olimpiya Oyunlarının ilk qızıl medalçısı olan Murad Bazarov bizimlə söhbətində Sinqapur Olimpiadasının onun karyerasının dönüş nöqtəsi olduğunu bildirdi.

"5-ci sinifdə oxuyarkən Respublika Olimpiya İdman Liseyinə gəlmişəm. Düzdür, həmin vaxtlar güləş idman növü barədə o qədər də məlumatım yox idi. Düzünü desəm, idmana gələndə Olimpiya Oyunlarının mükafatçısı olmaq heç düşüncələrimdə yox idi. Bir sözlə, bu hisslərin nə olduğunu bilmirdim. Əvvəlcə, sərbəst güləşlə məşğul olmuşam. 1 ildən sonra isə yunan-Roma güləşinə keçdim. İlk böyük sınağım 2010-cu ildə Sinqapurda təşkil olunan Yeniyetmələrin I Yay Olimpiya Oyunları olub. Bu yarışda Olimpiya çempionu oldum. Düzdür, buna qədər də mötəbər turnirlərdə birinci yeri tutmuşam. Lakin karyeramın ilk ən böyük uğurunu məhz Sinqapur Olimpiadasında qazandım. Bu Oyunlardan sonra idmanı daha da sevməyə başladım. Məşqlərə daha məsuliyyətlə yanaşırdım. Bir sözlə, yenidən bu uğuru növbəti yarışlarda təkrarlamaq istəyirdim. Yarışlarda qalib gəldikcə, qələbə qazanmaq istəyim daha da artdı. Olimpiya Oyunlarının qalibi olmağın bir sıra üstünlükləri var. Məktəbdə hər kəs məni nümunəvi idmançı kimi göstərirdi. Hər kəs mənə hörmətlə yanaşırdı. Bu qələbə mənim həyatımda çox böyük dəyişikliklər yaratdı. İdmanda mübarizliyi, qalib gəldikcə, yenidən udmaq istədiyimi, hər şeyin zəhmətlə başa gəldiyini dərk etdim. Heç bir uğur əziyyətsiz qazanılmır. Hər zaman böyük qələbələrin arxasında çətinliklər dayanır. Əsas odur ki, məsuliyyətini dərk edib, çətinlikləri dəf etməyi bacarasan. İndi əsas məqsədim böyüklərin Yay Olimpiya Oyunlarının qalibi olmaqdır. Dünya və Avropa çempionatında hər bir idmançı fərqlənə bilər. Olimpiya Oyunlarında isə hər idmançı qalib gələ bilməz. Olimpiada həyəcanı tamam fərqli hissdir. İnanıram ki, mən də 4 illiyin zirvə yarışında fəxri kürsünün ən yüksək pilləsinə qalxacağam".

**Azərbaycan idmançıları Yeniyetmələrin Yay Olimpiya Oyunlarında**

| Medalçı | Medal | İdman növü | Yarış növü | İl |
|---|---|---|---|---|
| 1. Murad Bazarov | qızıl | güləş | oğlanlar, yunan-Roma, 42 kq | 2010, Sinqapur |
| 2. Elman Muxtarov | qızıl | güləş | oğlanlar, yunan-Roma, 50 kq | 2010, Sinqapur |
| 3. Patimat Baqomedova | qızıl | güləş | qızlar, sərbəst, 52 kq | 2010, Sinqapur |
| 4. Nicat Rəhimov | qızıl | ağırlıqqaldırma | oğlanlar, 69 kq | 2010, Sinqapur |
| 5. Əli Məhəmmədəbirov | qızıl | güləş | oğlanlar, sərbəst, 100 kq | 2010, Sinqapur |
| 6. Kənan Quliyev | gümüş | güləş | oğlanlar, sərbəst, 54 kq | 2010, Sinqapur |
| 7. Salman Əlizadə | gümüş | boks | oğlanlar, 48 kq | 2010, Sinqapur |
| 8. Elvin İsayev | gümüş | boks | oğlanlar, 57 kq | 2010, Sinqapur |
| 9. Natiq Qurbanlı | gümüş | cüdo | oğlanlar, -55 kq | 2014, Nankin |
| 10. Leyla Əliyeva | gümüş | cüdo | qızlar, -44 kq | 2014, Nankin |
| 11. Cerən Özbək | gümüş | taekvondo | qızlar, -44 kq | 2014, Nankin |
| 12. Boris Yotov | gümüş | akademik avarçəkmə | oğlanlar, birnəfərlik qayıq | 2014, Nankin |
| 13. Səid Quliyev | qızıl | taekvondo | oğlanlar, -73 kq | 2014, Nankin |
| 14. Cabbar Nəcəfov | gümüş | güləş | oğlanlar, yunan-Roma, 50 kq | 2014, Nankin |
| 15. İslambəy Dadov | qızıl | güləş | oğlanlar, yunan-Roma, 69 kq | 2014, Nankin |
| 16. Nazim Babayev | bürünc | atletika | oğlanlar, üçtəkanla tullanma | 2014, Nankin |
| 17. Leyla Qurbanova | bürünc | güləş | qızlar, sərbəst, 52 kq | 2014, Nankin |
| 18. Teymur Məmmədov | qızıl | güləş | oğlanlar, sərbəst, 63 kq | 2014, Nankin |
| 19. İqbal Hacızadə | qızıl | güləş | oğlanlar, sərbəst, 100 kq | 2014, Nankin |
| 20. Rüfət Hüseynov | qızıl | boks | oğlanlar, 49 kq | 2014, Nankin |
| 21. Vüqar Talıbov | qızıl | cüdo | oğlanlar, 66 kq | 2018, Buenos-Ayres |
| 22. Turan Bayramov | qızıl | güləş | oğlanlar, sərbəst, 65 kq | 2018, Buenos-Ayres |
| 23. Şahanə Nəzərova | bürünc | güləş | qızlar, sərbəst, 43 kq | 2018, Buenos-Ayres |
| 24. Nurlan Səfərov | bürünc | boks | oğlanlar, 60 kq | 2018, Buenos-Ayres |
| 25. Cavad Ağayev | bürünc | taekvondo | oğlanlar, 63 kq | 2018, Buenos-Ayres |
| 26. Tərmenxan Babayev | gümüş | ağırlıqqaldırma | oğlanlar, 85 kq | 2018, Buenos-Ayres |
| 27. Yelzaveta Luzan | qızıl | bədii gimnastika | qarışıq komanda | 2018, Buenos-Ayres |

### "Olimpiada sevgisi məni karatedən taekvondoya gətirdi"

Yeniyetmələrin II Yay Olimpiya Oyunlarının qalibi Səid Quliyevin də böyük idmana gəlişi, atdığı ilk addımları kifayət qədər maraqlı olub. Vaxtilə atasının istəyi ilə karate bölməsinə yazılan Səid qısa vaxtdan sonra uğurlar qazanmağa başladı. Lakin bir müddətdən sonra o, karate üzrə məşqlərini yarımçıq qoyaraq, taekvondo bölməsinə yazıldı. O, bizimlə söhbətində bu qərarını Olimpiya Oyunlarında iştirak etmək arzusunda olduğu üçün verdiyini dedi. "Karate üzrə məşqlərim qaydasında idi. Bu idman növünü çox bəyənmişdim. Lakin bir gün "karatenin brilliantı" Rafael Ağayevlə söhbət etdim. Onun məsləhəti ilə Olimpiya idman növü olan taekvondo bölməsinə yazılmağa qərar verdim. Beləcə, olimpiada sevgisi məni karatedən taekvondoya gətirdi. İdmana gəldiyim gündən bəri həmişə Olimpiya çempionu olmağı qarşıma məqsəd qoymuşam. Bu arzuma isə 2014-cü ildə Yeniyetmələrin Nankin Olimpiya Oyunlarında nail oldum. Bu sevinc hisslərini heç nə ilə əvəz etmək olmaz. Gərgin məşqlər, qələbə əzmi və inam hissi bu zirvəni fəth etməyimə kömək oldu. Bütün yeniyetmə idmançılara məsləhət görərdim ki, məşğul olduqları idman növünə məsuliyyətlə yanaşsınlar, qızıl medal uğrunda sona qədər mübarizə aparsınlar. Heç vaxt təslim olmasınlar. Unutmasınlar ki, qələbə yalnız sonda qazanılır. Yeniyetmələrin Olimpiya Oyunlarında qızıl medal qazanan bir idmançı kimi uşaq və gənclərə daha bir tövsiyəm odur ki, özləri üçün mütləq bir kumir seçsinlər. Mənim karatedə kumirim Rafael Ağayev, taekvondoda isə Radik İsayevdir. Hər iki atlet kifayət qədər titulludur. Radik dünya, Avropa və Olimpiya çempionudur. Mən də çalışıram ki, Radik İsayev kimi bütün nailiyyətlərə yiyələnim. Bu arzuma çatmaq üçün isə səylə çalışacağam", - deyə Səid Quliyev bildirdi.

### "Öz uğurlarımla yeniyetmə və gənclərə örnək olduğum üçün çox sevinirəm"

İdmandan danışarkən atletikanı vurğulamamaq düzgün olmaz. Əbəs yerə deyilmir ki, atletika idmanın şahzadəsidir. Ölkəmizdə bu idman növü üzrə kifayət qədər uşaq və gənc məşğul olur. Onların arasında nailiyyətləri ilə fərqlənən idmançılardan biri də Nazim Babayevdir. 6 yaşından atletika ilə məşğul olan Nazim Babayevin də ən böyük arzusu futbolçu olmaq idi. Lakin tale elə gətirdi ki, o, atletika bölməsinə yazıldı və bu idman növündə kifayət qədər böyük uğurlar əldə etdi. Onun karyerasının ən böyük uğurlarından biri isə heç şübhəsiz, Yeniyetmələrin II Yay Olimpiya Oyunları olub. O, bu yarışda üçüncü yerə sahib çıxaraq, ölkəmizə yeniyetmələrin atletika yarışlarında ilk və yeganə medalı qazandırıb. "İdmana gəlişim anam və nənəmin sayəsində olub. Onlar məni, İsmət Qayıbov adına stadiona gətirdilər. Əvvəllər futbol bölməsinə yazılmaq istəyirdim. Lakin orada mənə dedilər ki, əvvəlcə, atletika ilə məşğul ol ki, fiziki hazırlığın yüksəlsin. Beləliklə, atletika üzrə məşqlərə başladım. Ziyad Xəlfəyevin sayəsində bu idman növünün incəliklərinə yiyələndim. Zaman keçdikcə, atletikaya marağım daha da artdı. Atletika mənə həyatımda böyük uğurlar qazandırdı. Burada tək maddiyatdan söhbət getmir. İdman mənə hər şeydən əvvəl sağlamlıq bəxş etdi. Sağlamlıq isə həyatda ən böyük sərvətdir. Bu günə qədər qazandığım nailiyyətlər məni daha da ruhlandırır. Hər dəfə Azərbaycanın himnini səsləndirdikdə, fəxri kürsüyə qalxdıqda doğrudan da öz ölkənlə fəxr edirsən. Bu hissləri bütün yeniyetmə və gənc idmançılara arzulayıram. Yeniyetmələrin Olimpiya Oyunlarının bürünc medalı həyatımda çox böyük rol oynadı. Bu, böyüklərin Olimpiya Oyunlarına gedən bir yoldur. Valideynlərim və ətrafımda olan insanlar bu uğurumla fəxr edirdilər. Həmin yarışda göstərdiyim nəticəni çox ciddi uğur hesab edirdilər. Öz uğurlarımla yeniyetmə və gənclərə örnək olduğum üçün çox sevinirəm. İndi hər bir idmançı kimi mənim də ən böyük arzum böyüklər arasında Olimpiya Oyunlarının qalibi olmaqdır. Bu məqsədə nail olmaq üçün bütün gücümü ortaya qoyub əzmlə məşq edəcəyəm. Bir məsələni də qeyd edim ki, idmançı istedadlı ola bilər, lakin o, bu istedadı üzərində çalışmasa heç vaxt uğur qazana bilməz. Yeniyetmələrin Olimpiya Oyunlarının bürünc mükafatçısı kimi öz təcrübəmə əsaslanaraq bütün yeniyetmə idmançılara tövsiyə edirəm ki, daim öz üzərlərində çalışsınlar, istedadlarını daha da inkişaf etdirsinlər".






### "İdman mənə heç nəyin əziyyətsiz başa gəlmədiyini öyrətdi"

Buenos-Ayres-2018-in taekvondo yarışlarının bürünc mükafatçısı Cavad Ağayev isə idmana gəlişini özünümüdafiə ilə əlaqələndirib. O, bizimlə söhbətində idmana hobbi kimi yanaşdığını deyib.

"İdman mənə heç nəyin əziyyətsiz başa gəlmədiyini öyrətdi. Əziyyət çəkmədən bir mərhələ belə keçmək mümkün olmaz. İllərlə məşq edirsən ki, dünya, Avropa və Olimpiya Oyunlarında sənə olan ümidləri və çəkdiyin əziyyətin bəhrəsini verəsən. İdmançı öz əziyyətinin bəhrəsini gördükdə daha da ruhlanır. Qələbə sevinci yeni uğurların əldə olunmasına vasitəçi olur. Əgər mən Buenos-Ayres-2018-də məğlub olsa idim, bəlkə də, ruhdan düşərdim. Çünki bu yarışa bütün gücümlə, qələbəyə inanaraq hazırlaşmışdım. Fikrimcə, idmançı özü də öz qələbəsinə inanmalıdır. Necə deyərlər, inam qələbənin yarısıdır. Məşqçilərdən əvvəl idmançılar özləri-özlərinin psixoloqu olmalıdır. Bu, yarış vaxtı onlara çox böyük kömək edəcək. Valideynlərim məni idmana yazdıranda nəticələr barədə düşünmürdüm. Fikirləşirdim ki, özümü müdafiə etmək üçün bir müddət idmanla məşğul olum. Həm də idmana hobbi kimi baxırdım. Heç vaxt ağlıma da gəlməzdi ki, bu qədər böyük nəticələr əldə edə bilərəm. Qeyd etdiyim kimi hər yarışda qazandığım qələbə və inam hissi məni Yeniyetmələrin Olimpiya Oyunlarının mükafatçısı etdi. Bütün idmançılara demək istəyirəm ki, öz güclərinə inansınlar, sona qədər yarışsınlar. Olimpiya Oyunları mənim üçün böyük əhəmiyyət kəsb etdi. Buenos-Ayres-2018 mənə həm də öz yaşıdlarımdan seçilməyi, ətrafdakı yeniyetmələrə nümunə olmağı verdi. Hiss edirəm ki, qələbəmdən sonra ətrafdakı dost-tanış da həvəslənərək, müxtəlif idman bölmələrinə yazılmaq istəyir. İndi çalışıram ki, bütün gücümü ortaya qoyum və böyüklərin Olimpiya Oyunlarında medal qazanım".

Yeniyetmələrin Yay Olimpiya Oyunlarında qazanılan nəticələr bir daha onu deməyə əsas verir ki, ölkəmizdə güclü yeniyetmə idmançılar ordusu yetişir. İnanırıq ki, bu ili uğurla başa vuran yeniyetmə idmançılarımız növbəti illərdə də öz parlaq qələbələri ilə hər birimizi sevindirəcəklər.

***Azər Əlizadə***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Toyotada namaz üçün şərait yaradılacaq

2020-ci ildə Yaponiyada keçiriləcək Olimpiya və Paralimpiya Oyunları ilə əlaqədar olaraq "Səyyar məscidlər" layihəsinin reallaşdırılmasına başlanılıb. Oyunların təşkilatçıları Olimpiya kəndində müsəlmanlar üçün ibadət otaqlarıı təklif edəcəklər. Bununla yanaşı, həmin vaxt stadionlarda və yarış meydançalarında isə ibadət yerlərinin ayrılması nəzərdə tutulmur.

Səyyar məscidlər müsəlman qonaqlara əqidələrinə uyğun olaraq gündə 5 rükət Məkkə istiqamətində namaz qılmaları üçün şərait yaradacaq. Layihəyə cəlb edilən şirkətlərin nümayəndələri Aiçi prefekturasının Toyota şəhərində mobil məscidin modelini nümayiş etdiriblər. İbadət otağını düzəltmək üçün üzərindəki konteynerin hər iki tərəfdən genişləndirildiyi yük avtomobili götürülüb. Kondisioneri olan otaqda eyni vaxtda 50 nəfər namaz qıla bilər.

Təşkilatçılar Məkkənin istiqamətini müəyyən etmək üçün bu otaqlara kompas yerləşdirməyi də planlaşdırır.





## Yaponlar Olimpiya Oyunlarından gəlir götürməyin yolunu tapıb

Yaponiyanın hökumət orqanları Tokioda keçiriləcək Yay Olimpiya Oyunları ilə əlaqədar beş ümummilli lotereyanın keçirilməsini və bu yolla 100 milyon dollar mənfəət götürməyi planlaşdırır. Həmin lotereyalardan birincisinin yaxın zamanlarda keçirilməsi nəzərdə tutulur. Bir lotereya biletinin qiyməti 200 yen (təqribən 2 dollar) təşkil edəcək və biletlərin satışı sentyabrın 6-da başa çatacaq. Eyni lotereyaların Olimpiya Oyunlarınadək daha dörd dəfə keçirilməsi planlaşdırılır.

Bu beş lotereyanın ümumi uduş fondu 202 milyon yen (2 milyon dollar) bərabər olacaq. Hökumət biletlərin satışından 100 milyon dollar mənfəət götürməyi nəzərdə tutur. Bu gəlir Oyunlarla bağlı idman obyektlərinin və digər infrastrukturun inşasına sərf ediləcək.

Hazırda Tokio-2020 Olimpiadasına ciddi hazırlıq gedir. Təşkilatçıların fikrincə, bu oyunlar "Gündoğar ölkə"nin qabaqcıl texnologiyalarını bütün dünyaya nümayiş etdirməlidir. Xüsusən hidrogen texnologiyalarının tətbiqi ilə çalışan energetika və avtomobil texnikasının nümayişinə xüsusi diqqət yetiriləcək. Eyni zamanda, möhtəşəm yarışların çoxsaylı tamaşaçılarına xidmət göstərəcək robotlardan istifadə Tokio Olimpiya Oyunlarının vizit kartına çevriləcək.

Növbəti Olimpiya Oyunlarının daha bir xarakterik cəhəti onun çox yığcam ərazidə keçirilməsi olacaq. Belə ki, təşkilatçıların qənaətinə görə, yarışların keçiriləcəyi bütün idman obyektləri bir-birindən ən çoxu səkkiz kilometr məsafədə yerləşəcək. Bu, bir stadiondan və ya idman kompleksindən digərinə hərəkət etmək üçün cəmi 30 dəqiqə sərf olunmasına imkan yaradacaq.

## Uçub çempion olmaq mümkündür

Rio-2016 Yay Olimpiya Oyunlarında qadınların 400 metr məsafəyə qaçışında Baham adalarını təmsil edən Şauna Miller yarışın sonunda uçaraq bütün rəqiblərini qabaqlayıb.

Bahamalı Miller 49.44 saniyə nəticə göstərərək Olimpiya çempionu tituluna yiyələnib. Ada ölkəsindən olan Millerin rəqiblərini keçmək məqsədilə finiş xəttinə doğru sıçraması da diqqəti çəkib.

Bu məsafədə ABŞ-lı Alison Feliks (49.51) gümüş, yamaykalı Şeriçka Cekson isə (49.85) isə bürünc medal əldə edib.






"Olimpiya dünyası" qəzetinin arxivindən

*("Olimpiya dünyası" qəzetinin keçirdiyi I Bakı Beynəlxalq Karikatura Müsabiqəsindən)*

## Hindistan yığmasının heyətində naməlum qadın kim olub?

London-2012 Olimpiadası qalmaqallarla tarixdə iz qoyub. Bu qalmaqallardan biri Hindistan yığması ilə bağlıdır. Belə ki, açılış mərasimində Hindistan yığmasının keçidi zamanı dəstədə naməlum bir qadın peyda olub. Naməlum qadın Hindistan atletlərinin önündə bayraq daşıyan Suşil Kumarın yanında görünüb. Hindistan rəsmiləri Olimpiada təşkilatçılarından bu qadının kimliyinə və onun dəstəyə necə



qoşulduğuna reaksiya veriblər. Hindistanın Olimpiadakı nümayəndə heyətinin rəhbəri Brig P.K.Muralidharan Raja nümayəndələr arasında olmayan birisinin dəstəyə qoşula bilməsindən son dərəcə narahat olduqlarını deyib. Bu hadisədən 6 il keçməsinə baxmayaraq, həmin qadın barəsində hələ də dəqiq məlumat yoxdur.

# *Olimpiya Oyunlarında unudulmaz hadisələr*

***Olimpiya Oyunları dünyada ən mötəbər və möhtəşəm idman yarışlarından biridir. Dörd ildən bir keçirilən olimpiada yarışlarında dünyanın 200-dən çox ölkəsindən atletlər qüvvələrini sınayırlar. Əsasını qədim Yunanıstandan götürən müasir Olimpiya Oyunlarının yaranmasından 122 il ötür. Bu müddət ərzində 31 olimpiada keçirilib. Nəinki Olimpiya çempionu olmaq, bu Oyunlarda iştirak etmək belə hər idmançıya nəsib olmur.***

***Hər zaman səhifələrində olimpizmin, Olimpiya Hərəkatının təbliğinə geniş yer verən "Olimpiya dünyası" qəzeti bu dəfə oxucularına olimpiadalardakı maraqlı və qeyri-adi hadisələr barədə məlumat verəcək.***

### Olimpiya bayrağındakı nöqsanı 20 il heç kim görmədi

Maraqlı hadisələrdən biri Yaponiyanın Sapporo şəhərində keçirilən XI Qış Olimpiya Oyunlarının açılış mərasiminin məşqi zamanı baş verib. Olimpiya bayrağı olimpiadanın açılış mərasiminə gətiriləndə zalda iştirak edən diqqətli tamaşaçılardan biri təəccüblənir: Olimpiya xartiyasına uyğun olan 5 həlqənin rəng sıralaması pozulmuşdu. Belə ki, sıralamada mavi, sarı, qara, yaşıl və qırmızı rənglər biri-birini əvəz etməli olduğu halda, səhvə yol verilmişdi. Həmin tamaşaçı Təşkilat Komitəsini bu barədə xəbərdar edir. Bu hadisədən dilxor olan təşkilatçılar ilk mənbəyə müraciət etməli olurlar. Məlum olur ki, Olimpiya bayrağında həlqələrin rəngi 1952-ci ildən etibarən düz verilməyib və bunu 20 il ərzində də heç kəs müşahidə etməyib.

### Moskva-1980 Olimpiadasının boykot edilməsi

1977-ci il iyunun 10-da Ağ evdə ABŞ prezidenti Cimmi Karter Moskva-1980 Olimpiya Oyunlarının boykot edilməsi ilə bağlı çıxış edir. Ölkənin aparıcı nəşrlərinin baş redaktorları ilə məsləhətləşmələrdən sonra olimpiadaya qarşı elan edilmiş informasiya müharibəsinin ilk atəşi açılır. Həmin qəzetlər Cimmi Karterin bəyanatını dərc edirlər: "Mən şəxsən, Sovet İttifaqına təcavüzkar formada və təbii ki, digər ölkələrə sülh məramı ilə çağırış etmək istəyirəm. Bildirirəm ki, indi olmasa da, 15-20 ildən sonra dünyanın hər bir nöqtəsində biz böyük nüfuza malik olacağıq".



Sovet qoşunlarının Əfqanıstana yeridilməsinə amili Olimpiada-80-nin boykot edilməsinə vəsilə olmuşdu. ABŞ prezidenti 1980-ci il yanvarın 4-də XXII Yay Olimpiya Oyunlarının boykot edilməsini rəsmi olaraq elan etdi.

Moskva-1980 Olimpiadasında oyunların rəsmi dili fransız dili oldu. Boykota görə həmin dövrdə çıxan və Amerika Olimpiya komandasına həsr olunmuş "Amerika" jurnalı ləğv edildi.

### Pekin-2008 Olimpiadasının talismanı və emblemi nəyi ifadə edirdi?

Pekin-2008 Yay Olimpiya Oyunlarının talismanları 5 simvolu özündə birləşdirirdi- qaranquş, balıq, panda, tibet sayğakı və Olimpiya alovu. Talismanlara belə adlar qoyulmuşdu- Bey-bey, Xuan-xuan, Yinq-yinq, Jinq-jinq, Ni-ni.

Talismanların adlarının ilk hecalarından isə belə bir cümlə alınırdı: "Pekinə xoş gəlmisiniz".

Pekin-2008 Olimpiadasının qaçan insanı ifadə edən emblemi əslində "Pekin" heroqlifi əsasında hazırlanmışdı. Emblemin konturunda çinlilər paytaxt şəhərin adını oxuya bilirdilər.

olimpnews.az - sizin saytınız





Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

*E-mail:* olimpiya_dunyasi@mail.ru
*Ünvan:* Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
*Tel.:* 564-90-49; 564-90-54; 564-74-19